

## Sahibə Qafarova Fransanın qərəzli qətnamələrini pislədi

*Milli Məclisin sədri Sahibə Qafarova mayın 11-də Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayonla görüşüb. Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Sahibə Qafarova, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək...*

Səh.3


# UNİKAL

№18 (2152) 12 may 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Elmar Məmmədyarovdan Ermənistana mesaj: "Sülh müqaviləsi istəmirsizsə..."

*Xəbər verdiyimiz kimi, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib. Təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub, digər hərbçimiz Mahmudlu Müslüm Vidadi oğlu isə başından ağır yaralanıb. Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, düşmən təxribatlarının qarşısının tam alınması üçün sülh müqaviləsi imzalanmalıdır: "Saziş olmasa, belə xoşagəlməz hadisələr baş verə bilər. Ermənilər başa düşməlidirlər ki, sülh müqaviləsi ilk növbədə onlar üçün vacibdir. Bu saziş imzalanmasa, Ermənistanın inkişaf səviyyəsi də sıfıra enəcək. Azərbaycan onsuz da inkişaf edir. Müharibədə də qalib gəldi.*

Səh.3




Səh.9

## Sülhə gedən yola qan tökürlər: Məkrli təxribat planı

## "Onlar heç cür sülhün olmasını istəmirlər"



*Milli Məclisin deputatı Naqif Həmzəyev "Unikal"a müsahibə verib. O, Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçiriləcək görüşündə hansı məsələlərin müzakirə ediləcəyindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından və sülh müqaviləsi ilə bağlı danışıqların getdiyi bir vaxtda düşmənin...*

Səh.4

## Səhiyyə Nazirliyindəki tenderlərdə yenidən Elsevər Ağayev izi...



*Müstəqil ekspertlər və beynəlxalq korrupsiya araşdırma təşkilatları hələ də Azərbaycanda ən korrupsiyalaşmış və ən böyük dövlət vəsaitlərinin mənimsənilməsi sahəsi kimi dövlət satınalmaları və tenderləri göstərirlər. Bir çox mütəxəssislərin fikrincə, təəssüf ki, çoxsaylı kadr dəyişiklikləri və qanunvericilikdəki yeniliklərə baxmayaraq, tenderlər yenə də əsas...*

Səh.8

## Turizm sahəsində azad sahibkarlıq təşviq edilməlidir



*Bu günlərdə sosial şəbəkədə Laçında tikiləcək "Kamper Park Həkəri" turizm mərkəzinin maketlərinin fotoları yayımlandı. Məlumatlara görə, Azərbaycanın dilbər guşəsi olan Laçının böyük turizm potensiallarından olan Həkəri çayının ətrafında çimərliyin salınacağı da bildirilirdi. Azərbaycanda qeyri-neft sektorunda...*

Səh.11

# Azərbaycanın "Avroviziya" təmsilçiləri: "Seçilməsək də, xoşbəxtik"



***Dünən Azərbaycanın "Avroviziya"dakı təmsilçiləri Tural və Turan Bağmanov qardaşları müsabiqənin ilk yarım finalında Azərbaycanı təmsil ediblər.***

Əkizlər final mərhələsinə keçə bilməsələr də, müsabiqənin onlara böyük təcrübə qatdığını deyiblər: "O qədər insanın qarşısında çıxış etmək, onların enerjisini hiss etmək çox gözəl hisslər idi. Seçilməsək də mən yenə də xoşbəxtəm, çox gözəl təcrübə yaşadım. Buna görə minnətdaram. "Avroviziya", bu hekayə, bu təcrübələr bizə çox şey qatdı. Biz qazandığımızı qazandıq"- deyə əkizlərdən Tural Bağmanov bildirir.

Turan isə deyir ki, finala keçməməyi ilə bağlı əvvəlcə biraz pis olsa da, sonradan yaxşı hiss edib. Əkizlər hazırda Çexiya, ya da Sloveniyanın qalib gəlməsini istədiklərini deyir: "Latviya və Maltanı çox sevirdik. Onların mahnıları çox güclü idi. Ancaq onlar finala keçə bilmədi. İndi istəyərdik ya Çexiya, ya da Sloveniya qalib gəlsin".

Təmsilçilərimiz deyirlər ki, Bakıya qayıdan kimi albom üzərində işləyəcəklər. "Yaxın zaman ərzində albomumuzu buraxacağıq".

Əkizlər mahnı müsabiqəsinin açılış mərasimində geyindikləri geyim tərzinə görə edilən tənqidlər haqqında da açıqlama veriblər: "Tənqid olunmaqdan narahat deyilik. Musiqiçi olan insan, incəsənət insanı buna dözməlidir, kimsə sənə yaxşı da desə, pis də desə. Sən mental olaraq hazır olmalısan, bu sənə təsir etməməlidir. Tezbazar qırılsan olmaz", deyə onlar tənqidə açıq olduqlarını bildiriblər:

"Geyim haqqında onu demək istəyirik ki, biz geyimimizi sevirik. Bizim tənqid edilən o geyimlərimizi biz çox sevə-sevə geyindik. Saçımdan makiyajıma kimi o geyimi mən sevirəm, xoşlayıram. Bu incəsənətdir, geyim də musiqi kimi bir şeydir. Əgər sən o tərzi sevmirsənsə, deməli o sadəcə sənin tərzin deyil. Bu sadəcə olaraq bir obrazdır. Sabah, birisi gün kovboy kimi də geyinə bilərəm. Bu o demək deyil ki, mən Texasdayam, at sürürəm".

Onlar bildiriblər ki, "Avroviziya" müsabiqəsinə hələ ki, təkrar qatılmağı düşünmürlər: "Bir dəfə bunu təcrübə etdik, bizə bəsdir. Bəlkə gələcəkdə fikirləşərik. Maraqlı ola bilər yenidən qatılsaq. Ancaq fikirləşirik ki, hələ ki, bir dəfə bəsdir".

Sonda ifaçılarımız onları dəstəkləyən insanlara təşəkkür ediblər: "Bizi çox dəstəkləyən oldu, bizə sevgilərini göndərən, xoş sözlər yazan insanlar oldu. Biz onların hamısını çox sevirik. Onlar bizə çox dayaq oldular. Biz o insanlara görə özümüzü çox yaxşı hiss edirik".



# Rafet El Roman Gəncədə izdihamla qarşılandı

***10 may 2023-cü il tarixində Gəncə şəhərinin Heydər Əliyev adına "Park-Xiyaban" Kompleksində ("Zəfər Tağı"nın qarşısı) Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş bayram konserti keçirilib.***

"Unikal" xəbər verir ki, türkiyəli müğənni Rafet El Roman konsert proqramında iştirak edib.

Belə ki, müğənni Gəncədə böyük coşqu ilə qarşılanıb. Rafet El Roman həmin anları sosial şəbəkə hesabından paylaşaraq, onu dinləməyə gələnlərə təşəkkür edib.

# Daxili qanaxma keçirən "şofer Əhməd"in son durumu

***"Elxan Qasımovun vəziyyəti stabil ağır olaraq qalır. Daxili qanaxma səbəbindən təcili xəstəxanaya yerləşdirilib".***



Bunu "Unikal"a açıqlamasında Əməkdar artist Elxan Qasımovun qızı Kəmalə Qasımova deyib. "Atamın vəziyyəti ağır olduğundan həkimlər dərhal əməliyyat edib. Hazırda reanimasiyadadır" deyə, qızı bildirib.

Xatırladaq ki, 78 yaşlı aktyor Elxan Qasımov tamaşaçılara "Əhməd haradadır" filmindən "şofer Əhməd" rolu ilə tanınır.

**Gülayə Mecid**

# Şəxsi həyatı ilə gündəmdən düşməyən Günel: "Sevdiyim yerdəyəm"

***Bir neçə gündür şəxsi həyatı ilə bağlı yayılan xəbərlərlə gündəmdən düşməyən müğənni Günel Zeynalova Türkiyədə məkanların birində səhnəyə çıxıb.***

Sənətçinin Mayami gəzintisindən paylaşdığı şəkillər, yazdığı şərh müzakirələrə səbəb olmuş və onun keçmiş nişanlısı, iş adamı Reza Zərrabla barışdığı iddia edilmişdi. Türkiyədə mediada bununla bağlı xəbərlər yazılsa da, Günel sualları cavabsız qoyub.

İfaçı səhnədən yayımladığı fotolarına "Ən sevdiyim yerdəyəm. Möhtəşəm gecədən qalanlar. Bizimlə həmin gecə çox əylənənlər buradadır?" sözlərini yazıb.



Paylaşımın altından isə Günelə Reza ilə bağlı suallar ünvanlanıb.

Qeyd edək ki, Günel əvvəllər Reza Zarrabla nişanlı olub. İş adamı Günelə müğənni Ebru Gündeşlə xəyanət edib və onunla evlənib. Bu səbəbdən uzun illərdir ifaçılar arasında küsülülük var.

Ebru ilə Rezanın da evliliyi uzun çəkməyib, onlar boşanıblar. Ebru müğənni Hadisənin Reza ilə münasibətdə olduğu iddia edildikdən sonra onlar arasında da qalmaqal yaşanıb.



# Bir sıra tibb müəssisələrinin adları dəyişdirildi - SİYAHI

***TƏBİB-in tabeliyində fəaliyyət göstərən Bakı Baş Səhiyyə Mərkəzinin strukturuna daxil edilən bir sıra tibb müəssisələrinin adları dəyişdirilib.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, bir sıra tibb müəssisələrində ilkin səhiyyə xidmətinin optimallaşdırılması və təkmilləşdirilməsi məqsədilə tədbirlər davam edirilir.

Həyata keçirilən yeniliklərə uyğun olaraq, 10-dan çox tibb müəssisəsinin adı bundan sonrakı fəaliyyət istiqamətinə əsasən yenidən formalaşdırılıb. Mərkəzin strukturuna daxil olan 8 nömrəli Şəhər Xəstəxanasının, 9, 12, 13, 15, 18, 22, 28, 31 və 32 nömrəli Birləşmiş Şəhər Xəstəxanalarının (BŞX), Zabrat və Zirə Müalicə Diaqnostika Mərkəzlərinin adları aşağıdakı şəkildə dəyişdirilib:

8 nömrəli Şəhər Xəstəxanası - Nardaran Sağlamlıq Mərkəzi
12 nömrəli BŞX - Suraxanı Sağlamlıq Mərkəzi
28 nömrəli BŞX - Bilgəh Sağlamlıq Mərkəzi
Zabrat Müalicə Diaqnostika Mərkəzi - Zabrat Sağlamlıq Mərkəzi
Zirə Müalicə Diaqnostika Mərkəzi - Zirə Sağlamlıq Mərkəzi
9 nömrəli BŞX - 41 nömrəli Şəhər Poliklinikası
13 nömrəli BŞX - 42 nömrəli Şəhər Poliklinikası
15 nömrəli BŞX - 43 nömrəli Şəhər Poliklinikası
18 nömrəli BŞX - 44 nömrəli Şəhər Poliklinikası
22 nömrəli BŞX - 14 nömrəli Şəhər Poliklinikası
31 nömrəli BŞX - 45 nömrəli Şəhər Poliklinikası
32 nömrəli BŞX - 46 nömrəli Şəhər Poliklinikası

Məlumat üçün bildirək ki, TƏBİB rəhbərliyinin göstərişinə əsasən, Mərkəzin tabeliyində olan bir sıra müəssisələrdə stasionar fəaliyyət dayandırılmaqla çarpayı fondu ləğv edilib və həmin müəssisələrdə ambulator- poliklinik xidmət gücləndirilib. Qeyd olunan tibb müəssisələrinin adlarındakı bu dəyişiklik məhz həmin qərara uyğunlaşdırılıb və yeni istiqamət müəyyənləşdirilib. Həyata keçirilən bu tədbirlər tibbi kadrlardan səmərəli istifadə, ikin səhiyyə xidməti müəssisələrinin iş yükünün azaldılması və ambulator xidmət keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır.

# Kosmik fəaliyyətə nəzarət qaydası müəyyənləşir

***Kosmik fəaliyyətə nəzarət qaydası müəyyənləşir. Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Kosmik fəaliyyət haqqında" qanun layihəsində əksini tapıb.***

Bu Qanunla kosmik fəaliyyət subyektlərinin Reyestrdə qeydiyyata alınmış kosmik obyektlərinin idarə edilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəzarət edilir. Həmin kosmik obyektlərinin idarə edilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.

Layihəyə əsasən, kosmik fəzada milli fəaliyyətin əlaqələndirilməsi və həmin fəaliyyətə texniki nəzarət milli kosmik operator tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi Azərbaycan Respublikasından kənarda kosmik obyekt üzərində əmlak hüququnu əldə edənədək bu barədə milli kosmik operatora əvvəlcədən yazılı məlumat verməlidir. Azərbaycan Respublikasından kənarda kosmik obyektin istehsalını sifariş etmiş Azərbaycan Respublikasının vətəndaşı və ya hüquqi şəxsi sifariş verdiyi andan 30 (otuz) gün müddətində bu barədə milli kosmik operatora yazılı məlumat verməlidir.

Kosmik fəaliyyət və kosmik sənaye sahələrində dövlət sirri, kommersiya sirri və konfidensial məlumatlar qanuna və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq qorunur.

# Səhiyyə Nazirliyindəki tenderlərdə yenidən Elsevər Ağayev izi...

## Sabiq nazir müavini hələ də satınalma müsabiqələri ilə bağlı "söz sahiblərindən" biridir?

***Müstəqil ekspertlər və beynəlxalq korrupsiya araşdırma təşkilatları hələ də Azərbaycanda ən korrupsiyalaşmış və ən böyük dövlət vəsaitlərinin mənimsənilməsi sahəsi kimi dövlət satınalmaları və tenderləri göstərirlər. Bir çox mütəxəssislərin fikrincə, təəssüf ki, çoxsaylı kadr dəyişiklikləri və qanunvericilikdəki yeniliklərə baxmayaraq, tenderlər yenə də əsas koprrupsiya mənbəyi olaraq qalır.Kadr dəyişikliklərinin əhatə etdiyi sahələrdən biri də Səhiyyə Nazirliyidir. Son iki il ərzində bu nazirliyin rəhbərliyində köklü dəyişikliklər oldu. Nazir və müavinlər dəyişdi. Amma görünən odur ki, nazirliyin "tender siyasəti" bəzi digər nazirliklərdəki kimi dəyişməz olaraq qalır.Məsələn, uzun illərdir Səhiyyə Nazirliyinin tibb avadanlıqları və ləvazimatlarının alınmasında "favorit" şirkət "Arash Medical Company"dir. Nazirlər dəyişsə də, sözügedən şirkətin nazirliyin tenderlərindəki qalib mövqeyi dəyişmir.***



"Azpolitika" saytının yazdığına görə, "Arash Medical Company" heç də təsadüfən "tender kralı" hesab olunmur. Bu şirkət ləğv olunan "Araş Medikal" MMC-nin aktivləri əsasında təsis edilib. Şirkətin 2011-ci ildə yaradıldığı deyilir, amma hələ 2010-cu ilin müsabiqə reyestrlərinə əsasən, Tibb Universiteti yeni adı ilə ondan 917 173,54 manatlıq tibbi avadanlıqlar satın alıb.

Ümumilikdə isə "Araş Medical" MMC və "Arash Medical Company" həmin il xüsusilə Səhiyyə Nazirliyi və digər qurumlardan 13 398 507,06 manat dəyərində 46 tender qazanıb. Təkcə bir ildə İnnovasiya və Təchizat Mərkəzinin xəttilə 7 399 455,98 manatlıq tender udub. Azərbaycan Tibb Universiteti də "Arash Medikal Production LTD" adlı şirkətdən 8 099 515,79 manatlıq Tədris-Terapevtik Klinikasının inventarlarını satın alıb.

Həmin illərdən başlayaraq, şirkət səhiyyə sahəsində, az qala, bütün böyük tenderləri qazanıb. Özü də təkcə tibbi avadanlıqların, ləvazimatların satışı və quraşdırılması deyil, xəstəxanaların tikintisi və təmiri ilə bağlı satınalmalar da bu şirkətə verilib. Bunun nəticəsi olaraq, şirkət təkcə 2019-cu ilə qədər ümumilikdə 250 milyon(!) manatlıq tender qazanıb. Sonrakı illərdə də eyni temp saxlanılıb. Təkcə ötən il şirkət 27 tender udub. Bu, hər aya 2 tenderdən artıq deməkdir. Bu ilin əvvəlindən də tenderlər üst-üstə qazanılmaqdadır və onların dəyəri ilk 3 ayda artıq 1 milyon manata yaxınlaşıb. Ötən il bu məbləğ 4.5 milyon manata yaxın olub.

Mətbuatda gedən bəzi məlumatlarda göstərilirdi ki, şirkətin sahibi Milli Məclisin sabiq sədri Oqtay Əsədovun qohumudur. Ancaq indi "Arash Medical"-ın arxasında dayanan daha bir nəfərin adı çəkilir. Söhbət 1997-cü ildən Səhiyyə Nazirliyinin "Əczaçılıq və Tibb Sənayesi" EİB baş direktoru, 1999-cu ildən ötən ilin fevralına qədər, yəni 23 il boyunca səhiyyə nazirinin müavini vəzifəsini daşımış, bu müddətdə kifayət qədər oliqarxlaşmış Elsevər Ağayevdən gedir. İddia edilir ki, onun qudası "Arash Medical"a bağlıdır, eyni zamanda iki özəl klinikanın sahibidir. Həmin şəxsin ad-soyadı da çəkilir: Şamo Fərzəliyev.

Maraqlıdır ki, bir neçə gündür bu barədə yerli KİV-də yazılsa da sabiq nazir müavinindən və yaxınlarından deyilənlərlə bağlı hər hansı reaksiya gəlməyib. E.Ağayev və ətrafı bu iddia, eləcə də ittihamları təsdiqləməsələr belə, təkzib də etməyiblər.

Yeri gəlmişkən, "Unikal"ın əldə etdiyi məlumatlarda sabiq nazir müavininin səhiyyə sahəsindəki dövlət satınalmaları ilə bağlı müsabiqələrə ciddi şəkildə müdaxiləsinin hətta eks nazir Oqtay Şirəliyev tərəfindən qəzəblə qarşılandığı, nəticədə vaxtilə onlar arasında münasibətlərin gözlənilməz dərəcədə kəskinləşdiyi deyilir. Hətta vəziyyət o yerə çatıbmış ki, Şirəliyev öz müavinini hüquq-mühafizə orqanlarına şikayət edəcəyi ilə hədələyibmiş. Bundan sonra E.Ağayev bir müddət tenderlərlə bağlı qismən "kölgəyə çəkilib", lakin çox keçmədən yenə də satınalma müsabiqələrinə kobud müdaxilələrini davam etdiribmiş. "Yəni sabiq nazir müavini ilə bağlı danışarkən onun daha çox əczaçılıq sahəsində söz sahibi olduğuna diqqət çəkilir, lakin eks-müavin tenderlərdə də söz sahibi idi. Bu mənada Elsevər Ağayevin qudası ilə birgə səhiyyə sektorunda "bazar" açdığı yönündə son vaxtlar KİV-də yer alan iddia və ittihamlara təəccüblənməmək lazımdır" deyə mənbələr bildirirlər.

Sabiq nazir müavininin bütün bu söylənilənlərə münasibəti isə şübhəsiz ki, maraq doğurur. Lakin böyük ehtimalla o, "ənənəsinə" sadiq qalacaq - indiyədək olduğu kimi bundan sonra da barəsindəki iddia və ittihamlar qarşısında susacaq. Həm də xalq arasında susmağın razılıq əlaməti olduğunu yaxşı bildiyi halda...

***Toğrul Əliyev***

# Sülhə gedən yola qan tökürlər: Məkrli təxribat planı

***Xəbər verildiyi kimi, Ermənistan ordusu şərti sərhəddə təxribat törədib. Rəsmi məlumatda bildirilib ki, Ermənistan hərbçiləri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutub.***

Təxribat zamanı Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Mahmudlu Müslüm Vidadi oğlu başından ağır yaralanıb. Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə çatdırılıb. Ermənistan silahlı qüvvələri bölmələrinin qəsdən törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzalizadə Orxan Elxan oğlu şəhid olub. Bundan əlavə, Azərbaycan Ordusunun adekvat cavab tədbirləri zamanı Ermənistan ordusunun 4 hərbçisi yaralanıb.

Müdafiə Nazirliyinin yaydığı son məlumata görə, Basarkeçər rayonunun Zod istiqamətində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirən Ermənistan silahlı qüvvələri bölmələrinin aktivliyi tərəfimizdən müşahidə olunur. Bununla qarşı tərəf növbəti təxribata zəmin yaratmağa cəhd göstərir.

Bu barədə fikirlərini bizimlə bölüşən hərbi ekspert Ədalət Verdiyev deyib ki, bu təxribatların fasiləsiz olaraq sərhədlərdə, xüsusilə Dığ və Zod istiqamətlərində intensiv bir şəkildə davam etməsi Azərbaycanın öz tarixi torpaqlarında bufer zonası yaratmaq hüququnu da legitimləşdirir. O qeyd edib ki, Ermənistan tərəfinin növbəti dəfə şərti Azərbaycan-Ermənistan sərhədində təxribat törətməsi Ermənistanın sülh danışıqlarında səmimi olmadığını göstərir: "Daha əvvəl də biz buna bənzər hadisələrlə rastlaşmışıq. Belə təxribatların Ermənistan üçün nə qədər ağrılı, acılı nəticələrə gətirib çıxaracağı da sirr deyil".

Onun sözlərinə görə, görünən odur ki, Ermənistan tərəfi son 31 ayda başına gələn faciələrdən özü üçün doğru-dürüst bir nəticə çıxarmayıb: "Belə olan halda Azərbaycan tərəfi Ermənistanı keçən ilin sentyabrındakı hadisələrə bənzər bir şəkildə cəzalandırmaq hüququna malikdir". Hərbi ekspert bildirib ki, elə cəzalandırma tədbirlərinin son nəticəsi atəş açılan düşmən mövqelərinin tamamilə darmadağın edilməsi və həmin mövqelərdə Azərbaycan əsgərini yerləşdirməklə bayrağımızın qaldırılmasından ibarət olacaq.

Politoloq Elxan Şahinoğlu son təxribatların iki istiqamətdən şərh olunmasının mümkünlüyünü qeyd edib: "Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan 2 gündən sonra Brüsseldə görüşməli ikən sərhəddəki təxribat kimin maraqlarına cavab verir? Paşinyan son açıqlamalarının birində Avropa İttifaqının rəhbəri Şarl Mişelin vasitəçiliyindən narazılığını bildirmişdi. Paşinyan Mişeldən ona görə narazıdır ki, Avropa İttifaqının rəhbəri Azərbaycanla Ermənistan arasında qısa zaman kəsiyində sülh sazişinin imzalanmasını istəyir və bu zaman Qarabağ məsələsinə toxunmur. Paşinyan Mişelin "gəlin Brüsseldə yenidən üçtərəfli görüş keçirək" təklifinə birbaşa "yox" deyə də bilmir, ancaq danışıqlarda nəticə əldə edilməməsi üçün müzakirələrdən bir neçə gün əvvəl sərhəddə təxribata yaşıl işıq yandıra bilərdi. Başqa bir versiya da var. Nikol Paşinyan çıxışlarının birində özü etiraf etmişdi ki, Ermənistan ordusunda "beşinci kolon" mövcuddur. Paşinyan "beşinci kolon" dedikdə Rusiya kəşfiyyatı ilə bağlı olan yüksək rütbəli erməni hərbçilərinə işarə edib. Əgər Paşinyan ordusuna nəzarət edə bilmirsə, deməli Rusiya kəşfiyyatına bağlı hansısa erməni generalın əmri ilə də Azərbaycan mövqeləri atəşə tutula bilərdi. Bu halda "Azərbaycan mövqelərinə atəş açın" əmri Brüsselin və Vaşinqtonun vasitəçiliyini pozmaq istəyən Kremldən gəlib. Deməli Azərbaycan ordusu həm İrəvandan idarə olunan Ermənistan ordusuna qarşı, həm də Kremldən təlimat alan erməni generallarına qarşı savaşmaq məcburiyyətindədir".

Siyasi şərhçi Aqşin Kərimov isə deyib ki, Azərbaycan-Ermənistan sərhədində növbəti dəfə insident yaşanır. Ermənistan bu dəfə silahları Basarkeçər rayonunun Zod istiqamətindəki mövqelərindən Azərbaycan Ordusunun mövqelərinə qarşı tuşlayır - bu, əsasən, Kəlbəcərlə sərhəd xəttindəki vəziyyətin gərginliyini təsvir edir. Onun qənaətincə, geniş mənada sərhəddə atışmalar, insidentlər davam edəcək, çünki birinci növbədə Azərbaycanın delimitasiyaya dair tələblər paketi Ermənistanı hərbisizləşdirəcək zəngin gündəmə əsaslanır: "İkincisi, regiondakı situasiyanı ələ alıb, onu yönləndirmək, idarə etmək üçün Rusiya ilə Qərb arasında qızğın mübarizə davam edir və Moskva İrəvanı cəzalandırma aktına məruz qoymaq üçün geniş gündəliyə malikdir. Üçüncüsü, hazırkı insidentin motivi Rusiyanın ABŞ-nin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında keçirilən görüşlərə tərs mütənasib davranmasının nəticəsi kimi başa düşülə bilər. Çünki Rusiyanın regionda və qlobal siyasətdə mövqeləri zəifləməyə başladıqca, o, tarixi-siyasi miras kimi baxdığı Cənubi Qafqazı öz damı altında saxlamaq üçün müxtəlif variantlara gedir".

Şərhçi onu da əlavə edib ki, hadisənin baş verməsini digər bir fonda - Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri və Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya getməsinin izi ilə - şərh etmək də lazımdır: "Düzdür, Vaşinqtonda Azərbaycan və Ermənistan XİN başçıları arasında aparılan müzakirələr sülhə bir addım yaxınlaşma əlamətlərini göstərir. Hərçənd ki, görüləsi və geniş diskussiya mövzusu olacaq məsələlər həllə də açılmamış düyün kimi qalır. Vaşinqtondan sonrakı düyünləri açmaq üçün Rusiya və Avropa İttifaqı bir-birilə "didişdilər", lakin Bakı-İrəvan kanalı Moskvadan öncə Brüssel formatına üstünlük verdiyini nümayiş etdirdi. İndi sərhəddəki toqquşmalar Rusiyanın Brüssel formatını etibarsızlaşdırmaq və ya həmin görüşdən sonra Moskvanın daha etibarlı olduğunu göstərmək üçün planı kimi dərk edilə bilər.

Bəlkə də, təəccüblü səslənə bilər, lakin Nikol Paşinyanın özü də Rusiyaya az pas atmır. Birincisi: Paşinyan mayın 4-də bəyan etdi ki, Avropa İttifaqının monitorinq missiyasını Ermənistana dəvət etmək barədə qərar asan olmayıb. Çünki Aİ missiyası təhlükəsizliyə zəmanət vermir, əksinə, yeni çağırışlar yaradır. Bu, Paşinyanın Rusiya meydanına atdığı topdur, məqsədi "mən Aİ missiyasından imtina edə bilərəm, lakin əvəzində sərhədə KTMT kontingenti göndərilsin" ismarışını çatdırmaqdır.

İkincisi: Paşinyan 9 May Qələbə paradında iştirak üçün Moskvaya getdi, onun Rusiya Prezidenti Vladimir Putinin qulağına hansı sözləri pıçıldadığını və Putinin ona hansı cavablar verdiyini sərhəddəki toqquşmalar açır.

Üçüncüsü: Nikol Paşinyan Moskvadan qayıtdıqdan sonra, mayın 10-da Ermənistanın hüquq-mühafizə orqanlarının yüksəkvəzifəli məmurları ilə görüş keçirdiyi zamanda Rusiyada KTMT qüvvələrinin sərhədə yerləşdirilməsi tələbləri bərq vurmağa başladı.

Dördüncüsü: Mayın 10-da Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi İqor Xovayev İrəvana getdi, onun qovluğundakı müzakirə sənədlərinin nə olduğunu əvvəlki günlərdəki xronoloji ardıcıllıqda tapa bilərik.



Ancaq Ermənistan ona verilən vədlərin, Qərbdə və Rusiyada qulağına pıçıldanan ifadələrin cazibəsinə çox aldanır, elə düşünür ki, bunun İrəvanın xeyrinə praktiki əhəmiyyəti olacaq. Ona görə də sülh danışıqlarından sonra və onun davamının gəldiyi vaxtda qərar qəbul etmək əvəzinə, təxribatlara gedir və bunun əlamətlərini sərhəddə göstərməklə regionda eskalasiya riski yaradır. Bunun bir səbəbi də Azərbaycanın Laçın rayonunun Ermənistanla "sıfır nöqtəsində" quraşdırdığı sərhəd-buraxılış məntəqəsinin danışıqların mənasını dəyişdirməsi və prosesi sürətləndirməsi ilə əlaqədardır. Yəni, danışıqların mənalandırılması üçün dinamik qərarlar lazımdır, Ermənistan isə bir mərhələdə özünü göstərir, həlledici anlarda isə prosesdən yayınmaq üçün bulanıq sulara tullanır. Əgər Paşinyan bu addımlarını Moskvada razılaşdırıbsa, onda məntiqi bir fikir ortaya çıxır ki, Ermənistan mayın 14-də gözlənilən Brüssel görüşünün ləğvinə çalışır. Hər halda, danışıqlardan əvvəl Ermənistanın Zod istiqamətində əlavə qüvvə cəmləşdirməsi insidentin miqyasını genişləndirmək cəhdindən xəbər verir ki, bu da sülh gündəliyindəki praqmatik ideyaları zədələyə bilər. Ancaq hesab edirik ki, Brüssel görüşü baş tutacaq və ardınca da Moskvada tərəflər bir araya gəlmək üçün imkanlarını tükətməyəcəklər. Ermənistana dəstəklər bu müddətdə dekorativ xarakter daşıyacaq və mahiyyət etibarı ilə Azərbaycanın strateji maraqlarının önünə keçə bilməyəcək".

**_Murad İbrahimli_**

# İlham Əliyevə təbrik məktubları gəlib

***Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

“Unikal” xəbər verir ki, təbrikdə deyilir:

“Möhtərəm İlham Heydər oğlu! Əziz qardaşım! Sizi və qardaş Azərbaycan xalqını mühüm tarixi hadisə - ölkənizin Ümummilli Lideri, görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu unudulmaz gündə Azərbaycan xalqının dahi oğlu və əsl vətənpərvər şəxsiyyətin unudulmaz xatirəsini sonsuz qürur hissi ilə yad edərək, xüsusi vurğulamaq istərdim ki, Heydər Əliyev öz güclü iradəsi və nadir liderlik qabiliyyəti ilə müasir Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə və onun yeni dövlətçiliyinin təməlinin qoyulmasına, millətin birliyinə, həmrəyliyinə misilsiz töhfələr vermişdir.

Eyni zamanda, Özbəkistan ilə Azərbaycan arasında çoxşaxəli və uzunmüddətli münasibətlərin hərtərəfli inkişafı, dost və qardaş ölkələrimizin əlaqələrinin möhkəmləndirilməsi istiqamətində bu dahi şəxsiyyətin misilsiz xidmətlərini hər zaman yüksək ehtiram duyğuları ilə xatırlayacağıq.

Mübaliğəsiz qeyd etmək olar ki, bu əlamətdar yubiley münasibətilə Özbəkistanda Heydər Əliyevin mənalı həyat yoluna və örnək fəaliyyətinə həsr olunmuş çoxsaylı dəyirmi masalar, müxtəlif mədəni-maarif tədbirləri, elmi-bədii ədəbiyyatların nəşri özbək xalqının bu dahi şəxsiyyətə hədsiz ehtiramının parlaq ifadəsidir.

Hörmətli İlham Heydər oğlu! Biz Zati-alinizi - möhtərəm atanızın başladığı şərəfli yolun layiqli davamçısını, ölkəsinin nüfuzunu beynəlxalq aləmdə böyük dərəcədə artıran və tarixi ədaləti bərpa edən mahir siyasi xadimi Özbəkistanın əsl dostu kimi tanıyırıq, həmçinin strateji tərəfdaşlığımızın yeni səviyyəyə yüksəlməsi üçün Sizin fəal səylərinizi tam dəstəkləyirik.

Xüsusilə və böyük məmnunluqla qeyd etmək istərdim ki, son zamanlar aramızda yaranan və



möhkəm etimad ruhunda qurulmuş dialoqlarımız, cari ilin mart ayında Bakıda apardığımız açıq və səmərəli danışıqlarımız ikitərəfli və çoxtərəfli münasibətlərimizin inkişafına böyük təkan vermişdir.

Bununla yanaşı, yaxın gələcəkdə baş tutacaq ali səviyyədə səfərimiz zamanı əldə ediləcək mühüm razılaşmalar, əməkdaşlığımızın genişləndirilməsinə yönəlmiş dəqiq layihələr və əməli proqramlar şübhəsiz ki, hərtərəfli əlaqələrimizi daha yüksək səviyyəyə qaldıracaqdır.

Atanız Heydər Əliyevin nurlu xatirəsinin qəlblərimizi işıqlandırdığı bu günlərdə Sizə və bütün ailə üzvlərinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh və əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram”.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Məktubun mətnində deyilir: “Hörmətli İlham Heydər oğlu! Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Mən onun 25 il əvvəl söylədiyi sözləri xatırlayıram: “Azərbaycan mənim ürəyimdir. Azərbaycan mənim nəfəsimdir. Azərbaycan mənim həyatımdır”. Əminəm ki, həyatının mənasını ölkəsinə xidmət etməkdə görən belə vətənpərvər şəxsiyyəti əbədi olaraq xatırlayacaqlar.

Mənə nadir insan, böyük siyasi xadim, müasir Azərbaycan dövlətinin banisi hörmətli Heydər Əlirza oğlunu şəxsən tanımaq nəsib olub. Ondan siyasi müdrikliyi, təmkinliliyi, əsl strateji düşünmə qabiliyyətini məmnunluqla öyrənmişəm.

Minsk ilə Bakı arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasının əsasını qoyan Sizin atanızın xatirəsini Belarusda əziz tuturlar. Rəmzi haldır ki, Azərbaycanda “Heydər Əliyev İli” elan edilmiş 2023-cü ildə biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini də ləyaqətlə qeyd edirik.

Sizə - atanızın işinin sədaqətli davamçısına və Zati-alinizin yaxınlarına cansağlığı, səadət, əmin-amanlıq, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram”.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Məktubun mətnində deyilir:

“İcazə verin, Azərbaycanın möhtərəm Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ən səmimi təbriklərimi çatdırım. Dahi Heydər Əliyev bütün mənalı həyatını sevdiyi ölkəsinə həsr etmiş və milli dövlətçiliyin əsasını qoymuş görkəmli siyasi xadim idi. İndi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır və öz Ümummilli Liderinin xatirəsini ehtiramla yad edir. Bu xoş fürsətdən istifadə edib, Gürcüstan ilə Azərbaycan arasında strateji münasibətlərin qurulmasında dahi Heydər Əliyevin fundamental rolunu vurğulayaraq qeyd etmək istəyirəm ki, onun bu xidmətləri daim yaşayacaqdır. İnanıram ki, biz birgə səylərimizlə strateji tərəfdaşlığımızı xalqlarımızın və bütün regionun rifahı naminə daha da inkişaf etdirməyə davam edəcəyik.

Bu əlamətdar yubiley münasibətilə mən Ulu Öndər Heydər Əliyevin xatirəsinə dərin ehtiramımı bildirir, qardaş Azərbaycan xalqına ən xoş arzularımı və səmimi salamlarımı çatdırıram”.

# Əsgərimizin ölüm faktı üzrə cinayət işi açıldı

***Ermənistanın növbəti təxribatları zamanı müxtəlif vaxtlarda düşmən tərəfdən odlu silahlardan açılmış atəş nəticəsində Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Mahmudlu Müslüm Vidadi oğlunun yaralanması, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Novruzəlizadə Orxan Elxan oğlunun ölməsi barədə Kəlbəcər hərbi prokurorluğuna məlumatlar daxil olub.***

Daxil olmuş məlumatlar əsasında Kəlbəcər hərbi prokurorluğunun işçiləri tərəfindən izahatlar alınıb, Hərbi Prokurorluğun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları ilə birlikdə müvafiq işlər görülüb və digər hərəkətlər icra edilib.

Hərbi Prokurorluğun mətbuat xidmətindən ”Unikal”a bildirilib ki, faktlar üzrə Kəlbəcər hərbi prokurorluğunda cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə) və digər maddələri ilə istintaq davam etdirilir. Qanunvericiliyin və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

# Mehriban Əliyeva Şuşadan paylaşım edib



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Şuşadan paylaşım edib.***

”Unikal” xəbər verir ki, Birinci vitse-prezident paylaşımda yazıb: “Dostumuzun ailəsində artım var”.

# Ordumuz şəhidimizin qisasını aldı



***Xəbər verdiyimiz kimi, Ermənistan silahlı qüvvələri bölmələrinin qəsdən törətdiyi təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub.***

”Unikal”ın məlumatına görə, Azərbaycan Ordusu şəhidimizin qisasını alaraq Basarkeçər rayonunun Zod istiqamətində Ermənistanın hərbi infrastrukturunu məhv edib.

Qeyd edək ki, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib.

# "Azərbaycan və Türkiyə Ermənistana əl uzadıb" - Akar



***”Azərbaycan və Türkiyə birlikdə Ermənistana əl uzatdılar. Biz hələ də bu əlin qəbul olunmasını gözləyirik, sülh istəyirik”.***

”Unikal” xəbər verir ki, Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar “Anadolu Qartalı 2023” təliminin nəticələri ilə bağlı brifinq zamanı deyib.

Akar qeyd edib ki, bölgədə sülh hamının xeyrinə olacaq: ”Biz bunu izah etməyə çalışırıq, Ermənistana deyirik ki, kənardan gələn sifarişlə hərəkətə keçməyin. Düşünürük ki, o, bu bölgənin şərtlərinə və coğrafiyasına uyğun hərəkət etsə, həm bölgəyə, həm də özünə xeyir verəcək”.

***Gülayə Mecid***

# Ermənilər mövqelərimizi toplardan atəşə tutub



***Mayın 11-i saat 17:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən atəş mövqelərindən Azərbaycan Ordusunun şərti sərhəddin bu istiqamətdəki mövqelərini D-30 toplarından istifadə etməklə atəşə tutur.***

”Unikal” xəbər verir ki, bu barədə MN məlumat yayıb. Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülür.

**ELAN**

**Sumqayıt şəhər 17 saylı Zülfi Hacıyev adına orta məktəbin məzunu Nəsirli Könül Nəsrəddin qızına 2000-ci ildə təqdim olunan attestat itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Elmar Məmmədyarovdan Ermənistana mesaj: "Sülh müqaviləsi istəmirsizsə..."

***Xəbər verdiyimiz kimi, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib.***

Təxribat nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Novruzəlizadə Orxan Elxan oğlu şəhid olub, digər hərbçimiz Mahmudlu Müslüm Vidadi oğlu isə başından ağır yaralanıb.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Elmar Məmmədyarov bildirib ki, düşmən təxribatlarının qarşısının tam alınması üçün sülh müqaviləsi imzalanmalıdır: "Saziş olmasa, belə xoşagəlməz hadisələr baş verə bilər. Ermənilər başa düşməlidirlər ki, sülh müqaviləsi ilk növbədə onlar üçün



vacibdir. Bu saziş imzalanmasa, Ermənistanın inkişaf səviyyəsi də sıfıra enəcək. Azərbaycan onsuz da inkişaf edir. Müharibədə də qalib gəldi. Sülh sazişi Azərbaycan üçün o qədər də vacib deyil. Ermənistana və bütün dünyaya mesaj veririk ki, istəyirsinizsə, sazişi imzalayaq, istəmirsinizsə, biz sazişsiz 30 il yaşamışıq, hələ 30 il də yaşaya bilərik".

Sabiq nazir mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin iştirakı ilə keçiriləcək görüşün mümkün nəticələrindən də danışıb: "Mənim fikrimcə, Brüsseldə tərəflər Vaşinqtonda razılığa gələ bilmədikləri məsələləri müzakirə edəcəklər. Təsadüfi hal deyil ki, ABŞ dövlət katibi Entoni Blinken Şarl Mişelə zəng vuraraq Azərbaycan-Ermənistan məsələlərinin hansı yerdə qaldığı barədə məlumat verir.

Məsələlər artıq nazirlər səviyyəsində yox, ölkə rəhbərləri səviyyəsində müzakirə olunmalıdır. Əsas məsələ ondan ibarətdir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu qəbul etsin. Sərhədlərin delimitasiyası və demarkasiyası məsələlərinin həll olunması da olduqca vacibdir".

***Murad İbrahimli***

# Sahibə Qafarova Fransanın qərəzli qətnamələrini pislədi

## Milli Məclisin sədri: "Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisidir"

***Milli Məclisin sədri Sahibə Qafarova mayın 11-də Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ann Buayonla görüşüb.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Sahibə Qafarova, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ümidvar olduğunu bildirib ki, o, Fransanın Azərbaycandakı səfiri kimi fəaliyyətində ölkələrimiz arasında münasibətlərə öz töhfəsini verəcək.

Spiker qeyd edib ki, ötən il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunub. Milli Məclisin sədri, bu 30 il ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu qeyd edib. O, həmçinin, tərəflər arasında iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, mədəniyyət, təhsil sahələrində müsbət əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Qeyd olunub ki, çoxsaylı yüksək səviyyəli səfərlər və görüşlər ikitərəfli münasibətlərimizdə mühüm rol oynayıb. Spiker, Prezident İlham Əliyevin Fransaya 13, Fransa prezidentlərinin 3 dəfə ölkəmizə səfər etdiyini xatırladıb. O, həmçinin Heydər Əliyev Fondunun Fransadakı fəaliyyətini qeyd edib.

Milli Məclisin sədri ötən dövrlərdə ikitərəfli münasibətlərdə əldə olunmuş bu nailiyyətlərə baxmayaraq, bəzi Fransa rəsmilərinin və siyasətçilərinin Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə açıq şəkildə Ermənistana dəstəyini ifadə edən,



Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan və ermənipərəst siyasətini göstərən bəyanatlarının Azərbaycan ictimaiyyətinin haqlı və ciddi narazılığına səbəb olduğunu xatırladaraq, bu kimi təxribatçı bəyanatların ikitərəfli münasibətlərimizə mənfi təsir göstərdiyini qeyd edib. Spiker, bu çərçivədə Fransa Senatında və Milli Assambleyada qərəzli qətnamələrin qəbul edilməsini pisləyib. Sahibə Qafarova xatırladıb ki, 2022-ci ilin noyabrında Milli Məclis tərəfindən Fransa Senatında və Milli Assambleyada Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsini pisləyən Bəyanat qəbul edilib və parlamentarilərimiz Fransanın rayon və şəhərlərinin nümayəndələrinin, Milli Assambleya və Senat üzvlərinin təxribat xarakterli fəaliyyətinə və bəyanatlarına öz narazılıqlarını bildiriblər.

Spiker Sahibə Qafarova Fransanın Avropa və Xarici İşlər Naziri Ketrin Kolonnanın regiona son səfəri, Laçın yolu ilə bağlı Ermənistanda verdiyi bəyanatlar, həmçinin Fransanın ictimai radiosuna verdiyi müsahibədə səsləndirdiyi iddiaları da qəbuledilməz adlandırıb. Onun fikrincə, bu kimi qeyri-obyektiv fikirlər göstərir ki, Fransa bu məsələdə birtərəfli, qərəzli mövqeyini davam etdirir. Hamıya aydın olmalıdır ki, Qarabağ regionu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisidir və ölkəmizin ayrılmaz hissəsidir.

Səfir Ann Buayon görüşə görə minnətdarlığını bildirib. O, Azərbaycanda diplomatik fəaliyyətə başlayandan sonra keçirdiyi görüşlər barədə məlumat verib. Səfir, ölkələr arasında münasibətlərdə qanunvericilik orqanlarının mühüm rolunu qeyd edib, parlamentarilərin qarşılıqlı əlaqələrinin əhəmiyyətini vurğulayıb. O, Fransa parlamentində qəbul olunan sözügedən qətnamələrin hökumət tərəfindən dəstəklənmədiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.



# XİN sərhəddə baş verənlərə münasibət bildirdi

***Ermənistan sərhədyanı bölgələrdə Azərbaycana qarşı hərbi təxribatlarını artırır.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN-in yaydığı məlumatda deyilir.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş məlumata əsasən, mayın 10-u axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Zod istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla qəsdən təxribat törədib və bu təxribat nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu ağır yaralanıb.

Ermənistan tərəfinə təxribatlarına son qoyulması və qəsdən vəziyyətin gərginləşdirməməsi barədə xəbərdarlıq edilməsinə baxmayaraq, mayın 11-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri vəziyyəti daha da gərginləşdirərək Azərbaycan Ordusunun mövqelərini minaatanlardan atəşə tutub, təxribatlar nəticəsində bir nəfər hərbi qulluqçumuz həlak olub.

Ermənistanın təxribatlarının hər zaman olduğu kimi sülh sazişi üzrə danışıqların intensivləşdiyi, eləcə də liderlər arasında gözlənilən danışıqlar fonunda baş verməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını göstərir. Ermənistanın danışıqlar prosesinə xələl gətirən bu kimi əməlləri ciddi formada beynəlxalq ictimaiyyət tərəfindən rədd edilməli və qınanılmalıdır.

Ermənistanın təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri bütün lazımı tədbirləri görür.

Vəziyyətin qəsdən gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - deyə XİN-in yaydığı məlumatda qeyd olunub.

# Zakir Həsənov Türkiyədə səfərdədir

***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2023" beynəlxalq təlimini izləmək üçün qardaş ölkəyə səfər edib.***

"Unikal" Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Zakir Həsənov təlim çərçivəsində keçiriləcək "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak edəcək.

Qeyd edək ki, Azərbaycan HHQ-nin bir qrup şəxsi heyəti və Su-25 hücum təyyarələrinin cəlb olunduğu təlim ölkəmizlə yanaşı, Türkiyə, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Qətər və İngiltərə nümayəndələrinin iştirakı ilə keçirilir.

"Anadolu Qartalı - 2023" beynəlxalq taktiki-uçuş təlimində ABŞ, Avstraliya, Efiopiya, Mərakeş Krallığı, Fransa, Gürcüstan, İsveç, Qırğızıstan, Şimali Makedoniya, Liviya, Malayziya və İordaniya Krallığının nümayəndə heyəti müşahidəçi qismində iştirak edir.

# İsrail prezidenti Azərbaycana gələcək

***İsrail prezidenti İsxak Hersoq mayın 30-31-də Azərbaycana səfər edəcək.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, onu 40 nəfərə yaxın nümayəndə heyəti müşayiət edəcək.



# Ombudsman erməni təxribatı barədə müraciət yaydı

***Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə bağlı müraciət yayıb.***

Ombudsman Aparatından "Unikal"a daxil olan məlumatda deyilir: "Təəssüf hissi ilə qeyd edirik ki, Azərbaycanın sülh çağırışlarına məhəl qoymayan Ermənistan insan hüquqlarının kobud şəkildə pozulmasına yönəlmiş hərbi təxribatlara hələ də davam etməkdədir.

Cari il mayın 10-da axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətindəki mövqelərindən Ordumuzun üzbəüz mövqelərini müxtəlif növ atıcı silahlardan intensiv atəşə tutmaqla növbəti dəfə təxribat törətmişdir. Nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçuları - Novruzəlizadə Orxan Elxan oğlu həlak olmuş, Mahmudlu Müslüm Vidadi oğlu ağır yaralanmışdır.

Ermənistanın növbəti hərbi təxribatı nəticəsində həlak olmuş hərbçimizə Allahdan rəhmət diləyir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, regionda sülh quruculuğu prosesində maraqlı olmayan, öz işğalçı siyasətini davam etdirən, insan hüquqlarını kobud şəkildə pozan Ermənistanın hal-hazırda da davam edən hərbi təxribatını kəskin şəkildə pisləyirik.

Azərbaycanın davamlı olaraq təklif etdiyi sülh çağırışlarının əksinə olaraq Ermənistan məqsədli şəkildə regionda vəziyyəti gərginləşdirir, beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla yeni münaqişə ocaqlarının yaranması üçün təxribatlar törədir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili olaraq, bir daha beynəlxalq təşkilatlara müraciət edərək, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarına dərhal son qoyulması, regionda sülhün bərpası üzrə qəti tədbirlərin görülməsini tələb edirik".

# "Onlar heç cür sülhün olmasını istəmirlər"

## Naqif Həmzəyev: "Nikol Paşinyan sözdə sülhə hazır olduğunu söyləsə də, əslində sülhün baş tutmasının onun hakimiyyətdən getməsinə səbəb ola biləcəyini anladığı üçün belə bir anlaşmanın olmasını istəmir"

***Milli Məclisin deputatı Naqif Həmzəyev "Unikal"a müsahibə verib. O, Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçiriləcək görüşündə hansı məsələlərin müzakirə ediləbiləcəyindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından və sülh müqaviləsi ilə bağlı danışıqların getdiyi bir vaxtda düşmənin sərhəddə təxribat törətməsindən danışıb.***

-Naqif müəllim, bu həftəsonu Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti görüş keçiriləcək. Bu görüş zamanı hansı məsələlərin müzakirə olunacağı gözlənilir?

-Artıq uzun müddətdir ki, Ermənistanla normallaşma prosesinin reallaşdırılması üçün sülh anlaşması üzərində işlər gedir. Müxtəlif moderatorluq vasitəsilə Brüssel, Moskva və Vaşinqtonda görüşlər keçirilib. Görüşlərdən sonra müəyyən razılıqlar əldə edilsə də, tam razılığın əldə olunması baş tutmayıb. Bunun da müəyyən səbəbləri var. Ermənistan tərəfi bir çox şərtlərlə razılaşa bilmirdisə, sonuncu açıqlamalardan belə qənaətə gəlmək olur ki, onlar sülh anlaşmasını imzalamağa hazırdır. Fikrimcə, burada əsas mübahisə doğuran məqam xəritələrlə bağlıdır. Ona görə ki, həm Azərbaycan, həm də Ermənistan sovetlər tərkibinə daxil olduğu müddətdə bir neçə dəfə sərhədlərdə dəyişikliklər baş verib. Hansısa ərazilərin Ermənistana güzəştə gedilməsi qəbuledilən deyil. Həmçinin, kommunikasiyaların açılması ilə bağlı da müəyyən problemlər var. Belə ki, Ermənistan tərəfinin bununla bağlı öz versiyası var. Azərbaycan tərəfi isə konkret olaraq Zəngəzur dəhlizinin açılmasının digər kommunikasiyaların açılmasından öncə baş tutmasının tərəfdarıdır. Biz Zəngəzur dəhlizinin açılmasını vacib hesab edirik. Bunu yalnız yol olaraq deyil, həm də yaxın gələcəkdə enerji resurslarının da keçiriləbiləcəyi dəhliz kimi nəzərdə tuturuq. Bu məsələlər ətrafında müəyyən müzakirələr və fikir ayrılıqları olur. İstənilən halda son açıqlamalardan belə qənaətə gəlmək olur ki, Ermənistan tərəfi yumşalıb, reallıqları qəbul etmək istəyir. Bu reallıqlar fonunda anlaşma baş tuta bilər.

-Ermənistan tərəfi bildirir ki, Azərbaycanın sülh müqaviləsi ilə bağlı irəli sürdüyü şərtlərlə razıdır. O zaman nədən sülh sazişinin imzalanmasını uzadırlar?

- Dəfələrlə sülh anlaşmasının imzalanması ərəfəsində Ermənistan tərəfindən hansısa təxribatların baş verdiyinin şahidi oluruq. Bu təxribatlar sülhə gedən yolda maneəyə çevrilir, münasibətləri daha da soyudur. İncə və gərgin olan münasibətlər çətin vəziyyətə düşür. Ermənistan tərəfi ilk vaxtlar Azərbaycan ərazisində yaşayan ermənilər üçün hansısa status istəyirdi. Artıq bu status yoxdur. Onlar həmin ərazilərdə separatçıları aktiv fəaliyyətə sövq edirdilər. Yollar vasitəsilə həmin ərazilərə silah-sursat, terroristlər daşıyırdılar. Artıq Laçın yolu üzərində nəzarət-keçid məntəqəsinin qurulmasından sonra bu proses müəyyən dərəcədə dayanıb. Orada bütün avtomobillərin və vətəndaşların hərəkətinə nəzarət həyata keçirilir. Həmçinin, alternativ torpaq yollara Azərbaycan Silahlı Qüvvələri tərəfindən nəzarət tam bərpa edilib. Bu da istər-istəməz mövcud reallıqdan irəli gəlir. Ermənistan tərəfi anlayır ki, bu iddialardan və xülyalardan əl çəkməlidirlər. Yaxın gələcəkdə Ermənistanla Azərbaycan arasında normallaşma baş verəcəyi təqdirdə Xankəndi və onun ətrafında yaşayan ermənilər də Azərbaycan cəmiyyətinə inteqrasiya ediləcək. Yaşamaq istəməyənlər isə torpaqlarımızı tərk edəcəklər. Sülh anlaşmasının imzalanmaması üçün elə böyük maneə qalmayıb. Yeganə səbəb xəritələrlə bağlıdır. Həmçinin, işğal altında olan Azərbaycan kəndləri var ki, onların da boşaldılmasını tələb edirik. Bunun müqabilində isə Ermənistanın hansısa şərt irəli sürməsini qəbul etmirik. Delimitasiya və demarkasiya məsələsi isə uzun müddət davam etdirilə bilər.

-Mayın 10-u axşam saatlarında Ermənistan tərəfi yenidən təxribat törətdi, bir hərbi qulluqçumuz şəhid olub, digəri isə ağır yaralanıb. Sülh müqaviləsi ilə bağlı danışıqların getdiyi bir vaxtda bu cür təxribatçı addımları necə qiymətləndirirsiz?

-Təəssüflər olsun ki, biz yenidən eyni ssenarinin şahidi oluruq. Sülhə yaxınlaşma müşahidə olunduqda, Ermənistan tərəfindən təxribatlar törədilir. Burada müxtəlif versiyalar var. Ola bilər həqiqətən bunu törədənlər revanşist qüvvələrdir. Onlar heç cür sülhün olmasını istəmirlər. Azərbaycan və Türkiyə ilə yaxşı münasibətlərin qurulmasını istəməyən qüvvələr bu cür təxribatları törədirlər. Digər bir variant odur ki, Ermənistanın baş naziri Nikol Paşinyan sözdə sülhə hazır olduğunu söyləsə də, əslində sülhün baş tutmasının onun hakimiyyətdən getməsinə səbəb ola biləcəyini anladığı üçün belə bir anlaşmanın olmasını istəmir. Prosesi uzadaraq öz xeyirlərinə dəyişdirmək üçün gediş edir. İrandan alınmış dronların aktiv istifadə edilməsi və orada



ermənilərin deyil, İrandan olan mütəxəssislərin aparatları idarə etməsi ehtimalının olması onu deməyə imkan verir ki, İran bu anlaşmanın olmasını istəmir. Belə bir anlaşma fonunda Ermənistanı itirə biləcəyi qorxusu onları bu addımları atmağa sövq edir. Başqa bir variant isə odur ki, sülhə yaxınlaşdığımız ərəfədə Ermənistan bu cür gedişlər edərək bildirmək istəyir ki, onun üzərinə çox da gedilməsin. Çətinliklə bu anlaşmanın imzalanmasına nail olmaq istəyir. Sanki onlar az itki ilə bu müqavilənin imzalanmasını həyata keçirmək istəyirlər. İstənilən halda bu erməni oyunudur. Ermənistan hər dəfə müxtəlif gedişlər edərək prosesləri öz xeyrinə dəyişmək istəyib. Bu da onların növbəti addımlarından biridir. Bu təxribatlar nəticə etibarı ilə danışıqlar prosesini uzadır. Hər dəfə hərbi qulluqçumuz şəhid olduqda, yaralandıqda Azərbaycan cəmiyyəti ciddi narahat olur. Ona görə də Ermənistan onun üçün yaradılmış bu əla fürsəti düzgün dəyərləndirməli, təxribatları dərhal dayandırmalıdır. Çalışmalıdır ki, Azərbaycan Ordusunun qəzəbinə tuş gəlməsin. Əks təqdirdə Azərbaycan Silahlı Qüvvələri həm Ermənistan təxribatçılarının, həm də separatçıların cəzasını verməkgücündədir.

-Bundan əvvəl də düşmən tərəfindən bir neçə dəfə təxribatlar törədilib. Necə düşünürsüz, bu cür addımlar yenidən böyük toqquşmaların baş verməsinə səbəb ola bilərmi?

-Bu cür təxribatlar nəticə etibarı ilə irimiqyaslı əməliyyatlara gətirib çıxara bilməz. Faktiki olaraq Ermənistan sərhədində Avropa İttifaqının müşahidə missiyası xidmət göstərir. Bu da Ermənistanı müəyyən dərəcədə cəsarətləndirir. Amma istənilən halda Azərbaycan bu təxribatların qarşısını almaq üçün əməliyyatlar həyata keçirəcək. Sərhəddə Azərbaycan Silahlı Qüvvələri güclənib. Bütün strateji yüksəkliklər, zirvələr silahlı qüvvələrimizin nəzarətindədir. Bu cür əməliyyatlar sərhədboyu deyil, separatçıların yerləşdiyi ərazilərdə anti-terror əməliyyatlarının keçirilməsinə gətirib çıxara bilər. Bütün separatçıların və onlara bağlı olan silahlı dəstələrin Azərbaycan ərazilərindən çıxarılma ehtimalı var.

***Anar Kəlbiyev***

# Ziyanla işləyən dövlət şirkətləri ilə bağlı sensasion iddialar

## Necə olur ki, bu şirkətlər dividend ödəmir, lakin rəhbərləri getdikcə varlanır?

***Hesablama Palatasının məlumatına görə, 2020-ci ildə dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsinə özəlləşdirmə prosesində yaradılmış və səhmləri bütövlükdə yaxud səhmlərinin bir hissəsi dövlətə məxsus olan səhmdar cəmiyyətlər tərəfindən dövlət büdcəsinə dividendlərin ödənilməsi üzrə 187,4 min manat, 2021-ci ildə isə 11 dövlət müəssisəsindən ümumilikdə 183,4 min manat vəsait daxil olub.***

Ümumilikdə isə dövlətin payı olan 133 şirkətdən cəmi 11-i dividend ödəyib.

Divident ödəmiş şirkətlər sırasında "Azərenerjitikintiquraşdırma" ASC, "Azərşin", "Bakı Avtomobil Sənaye" ASC, "Bakı Məişət Maşınları" ASC, "Əli Bayramlı Kimyəvi Təmizləmə" ASC, "Ceyranbatan Dəmir Beton" ASC kimi səhmdar cəmiyyətlərin adları var.



Dövlətin payı olan şirkətlərin çox az bir qismi divident ödəyirsə, həmin şirkətlərin fəaliyyətinə ehtiyac varmı və burada kimlər maraqlıdır?

Ötən dövrdə bu barədə yerli mediaya danışan iqtisadçı ekspert Natiq Cəfərli bildirmişdi ki, dövlət şirkətlərinin böyük əksəriyyəti ziyanla işləyir və əslində bunu heç gizlətmirlər. "Cebhe.info"dakı açıqlamadan sitat: "Həmin şirkətlərin ziyanla işləməsinin, gəlirə çıxa bilməməsinin, divident ödəməməsinin, dövlətə hər hansı ödəniş keçirilməməsinin əsas səbəbi qeyri-effektiv, qeyri-şəffaf idarədir. Onlarda əsas problem xərc hissəsindədir. Yəni xərclər şişirdilir və nəticə etibarilə gəlirdən ziyana düşürlər. Daxil olan vəsaitlərin məbləğində problem olmur. Çünki bir çox hallarda banklar, pulköçürmələr vasitəsilə həyata keçirildiyi üçün daxil olan məbləğlər hesabatlılıqda görülür. Əsas problem xərc hissəsindədir ki, illərdir bu problem davam edir. Vəsaitlərin şişirdilməsi yolu ilə zərərə keçirlər və nəticədə nə vergi, nə də divident ödəyirlər.

Beləliklə də onların idarəetməsində olan problemlər vətəndaşlarla birbaşa işləyən dövlət şirkətlərində narazılığa səbəb olan məqamlar üzə çıxır. Ona görə də məntiqlə ziyanla işləyən, divident ödəyə bilməyən, vergisini normal verə bilməyən, dövlətdən dotasiya alan şirkətlərin ya təmərküzləşməsi və yaxud da effektiv idarəetmə modelinə keçməsi lazımdır".

Ekspert bildirmişdi ki, dövlət şirkətlərinin ya xərc hissəsinin şəffaflığı artmalı, ya da özəlləşmə məsələsi gündəmə gəlməlidir: "Harada imkan varsa, dövlət şirkətlərinin ən azından bir hissəsini ya özəl şirkətlərə uzunmüddətli icarəyə vermək, yaxud da özəlləşdirmə proqramına daxil etməyə lüzum var".

Bir sözlə, Azərbaycanda dövlət şirkətləri ətrafında mübahisəli vəziyyət davam edir. Həmin şirkətlər büdcədən dotasiya alır, lakin dividend ödəmək bir yana, ilbəil zərər açıqlayır, daha da borclanır. Bunun müqabilində isə onlara rəhbərlik edən şəxslərin ailə biznesləri günbəgün çiçəklənir, özlərinə, ailə üzvlərinə məxsus bahalı əmlaklar, lüks avtomobil kolleksiyaları və s. üzə çıxır. Belə anormallığın məntiqi izahını isə hələ ki, nə bilən var, nə tapan...

Görünən odur ki, hazırda hansısa dövlət şirkətinə rəhbərlik etmək ən asan (və ən faydalı!) işdir. Bəs necə? Dövlət büdcəsindən əlavə yardımlar və dotasiyalar alırsan. Xərc hissəsinin qeyri-şəffaflığı hesabına yaxşı pullar qazanırsan. Üstəlik, daxili və xarici borcları büdcənin üzərinə yükləyirsən. Əvəzində isə məsuliyyət, az qala, sıfıra bərabərdir. Belə işdən, obrazlı desək, kim inciyər?!

Borc məsələsindən söz düşmüşkən: Hesablama Palatasının 2021-ci ilin dövlət büdcəsi sənədinə verdiyi rəydən aydın olurdu ki, 2020-2024-cü illərdə dövlət şirkətlərindən "Azəralüminium" ASC dövlət zəmanəti ilə almış olduğu kreditlərin qaytarılmasına görə 175,5 milyon manat, "Azərbaycan Hava Yolları" QSC 1 milyard 383,8 milyon manat, "Azəristiliktəchizat" ASC 23,8 milyon manat, "Azərkosmos" ASC 142,8 milyon manat, "AzİntelekoM" MMC 322,6 milyon manat və s. vəsait ödəməlidir. Lakin təcrübə onu da göstərir ki, dövlət zəmanəti ilə borc alan şirkət və təşkilatlar nə borcun özünü, nə də dövlətin onların əvəzində ödədiyi vəsaitləri qaytarmaqda maraqlı deyillər. Belə ki, Hesablama Palatası tərəfindən həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələrinə əsasən qeyd etmək olar ki, 01 yanvar 2020-ci il tarixinə xaricdən dövlət zəmanəti ilə kredit alan 11 əsas qurumun Azərbaycanda Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna borcunun həcmi 383 milyon 709 min manat, 108 milyon 952,2 min dollar və 21 milyon 632,3 min avro təşkil edib. Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur.

Ümumiyyətlə isə illərdən bəridir araşdırmalardan aydın şəkildə görünür ki, dövlət şirkətlərinin fəaliyyətində, demək olar, bütün sahələr, bütün istiqamətlər üzrə ciddi problemlər var. Həmin problemlərin aradan qaldırılmasının əsas yolunu isə ekspertlər birmənalı olaraq həmin şirkətlərin tamamilə, yaxud qismən özəl əllərə verilməsində görürlər. Lakin dövlət şirkətlərinin rəhbərləri və onların nüfuzlu himayədarları özləri üçün arzuedilməz sayılan bu təklifin reallaşdırılmasına qarşı hələ ki, müqavimət göstərirlər. Çünki belədə çox şey itirəcəklərinin yaxşı fərqindədirlər. Düzdür, əvəzində büdcəmiz də çox şey itirir. Lakin dövlət şirkətlərinin rəhbərlərini bu əsla narahat eləmir - əsas odur ki özləri qazansınlar...

***Sənan Mirzə***



# Birinci siniflərə qəbul başlayır

***Mayın 11-dən 2023-2024-cü tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start veriləcək.***

Elm və Təhsil Nazirliyindən (ETN) "Unikal"a verilən məlumata görə, qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq.

Belə ki, 11 may saat 11:00-dan etibarən elektron portalda uşaqların qeydiyyatı, 15 may saat 11:00-dan etibarən isə Azərbaycan bölməsi üzrə sorğuların yerləşdirilməsi (məktəb seçimi) həyata keçiriləcək.

15 may saat 11:00-dan 31 may saat 18:00-a qədər dövlət ümumi təhsil müəssisələrinin tədris digər dillərdə aparılan birinci siniflərinə qəbulla bağlı uşaqların həmin dil üzrə şifahi nitq bacarıqlarının yoxlanılması məqsədilə təşkil olunan müsahibəyə yazılmaq üçün qeydiyyat aparılacaq.

Bakı Avropa liseyi, Respublika incəsənət gimnaziyası və Bülbül adına orta ixtisas musiqi məktəbinin Azərbaycan bölməsi üzrə birinci siniflərinə qəbulla bağlı müsabiqəyə yazılmaq üçün qeydiyyat isə 15 may saat 11:00-dan 27 iyun saat 18:00-a qədər həyata keçiriləcək.

Qeyd edək ki, qəbul prosesi ilə bağlı digər mərhələlər barədə məlumat veriləcək.

# "Azərsu" ASC-də elmi-praktiki konfrans keçirildi

***Görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçiriləcək "Azərbaycanın su təsərrüfatı sektorunun inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır" mövzusunda elmi-praktiki konfransın iştirakçıları Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinə səfər ediblər.***

Bu barədə "Unikal"a qurumdan məlumat verilib. Komplekslə tanışlıq zamanı bildirilib ki, Azərbaycanın içməli su sektorunda ən müasir qurğusu sayılan kompleksin təməli 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulub və 2015-ci ildə ölkə başçısının iştirakı ilə istismara verilib.

Məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr olan kompleksdə suyun emalı membran tipli süzgəclərdə aparılır. Su heç bir kimyəvi təmizlənmə aparılmadan tam qapalı, avtomatik rejimdə, mexaniki üsulla təmizlənir. Burada emal olunan su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir. Qeyd olunub ki, bu kompleks Bakı şəhəri və Abşeron yarımadasının böyük hissəsi, ümumilikdə 1 milyondan çox sakini yüksək keyfiyyətli içməli su ilə təmin edir.

Kompleksla tanışlıq çərçivəsində qonaqlar mərkəzi idarəetmə sistemi - SCADA otağında idarəetmə proseslərini izləyiblər. Daha sonra şura üzvləri kompleksin laboratoriyası ilə tanış olublar.

Tədbir iştirakçıları Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi ilə tanışlığın onlarda böyük təəssürat yaratdığını qeyd edib, burada yaradılmış infrastrukturun imkanlarını yüksək qiymətləndiriblər.



# "Hacı Cavad", "Şah Abbas" və digər 5 məscidə imam təyin olundu - SİYAHI

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən İslam dininə aid ibadət yerlərində imam və imam müavini vəzifələrinin tutulması üçün keçirilmiş müsahibələrdə uğur qazanan və təyinat alan din xadimləri ilə görüş keçirilib.***

Komitədən "Unikal"a verilən xəbərə görə, mayın 11-də baş tutan görüşdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı din xadimlərini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra din xadimlərinə tövsiyələrini verən M.Qurbanlı milli-mənəvi dəyərlərin təbliği istiqamətində görülən işlərdə onların üzərinə düşən vəzifələrə diqqət çəkib. Bildirib ki, İslam dininin əsaslarının, məram və məqsədinin olduğu kimi cəmiyyətə çatdırılmasında, həm də ondan hansısa destruktiv məqsədlər üçün istifadə olunmasının qarşısının alınmasında din xadimləri aktivlik nümayiş etdirməli, mənfi tendensiyalara qarşı mübarizədə, ideoloji sahədə aparılan maarifləndirmə işlərində ön sıralarda yer almalıdırlar. Komitə sədri, həmçinin məscidlərdə vəhdət prinsipinə, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvalarına əməl olunmasının vacibliyini vurğulayıb.

Din xadimləri öz növbələrində məscidlərə məhz bu qaydalar əsasında təyinatın həyata keçirilməsindən məmnunluqlarını ifadə edərək, imtahanların obyektiv və şəffaf təşkil edilməsindən razılıqlarını bildiriblər.

Sözügedən din xadimlərinin təyinatı və vəzifələri barədə məlumatı təqdim edirik:

1. Verdiyev Məhəmməd Həsən oğlu - Zaqatala rayonu, "Yengiyan" kənd məscidi (İmam müavini)
2. Qulamov Asif Ərəstun oğlu - Suraxanı rayonu, Qaraçuxur qəsəbə məscidi (İmam müavini)
3. Tahirov Turab Əliqan oğlu - Abşeron rayonu, "Aşağı Güzdək" qəsəbə məscidi (İmam müavini)
4. Səmədov Məcid Ələsgər oğlu - Saatlı şəhəri, "Şeyx Yusif" məscidi (İmam)
5. Babaşov Saleh Zubeyir oğlu - Qəbələ şəhəri, "Səkkizguşəli" məscidi (İmam müavini)
6. Əbdürəhimov Pünhan Qasım oğlu - İsmayıllı rayonu, Lahıc qəsəbəsi "Bədöyün" məscidi (İmam müavini)
7. Aslanlı Ramil Zakir oğlu - Yasamal rayonu, "Hacı Cavad" məscidi (İmam)
8. Əliməmmədov Cəlal Mövlan oğlu - Quba rayonu, "Hacı Hüseynli" kənd məscidi (İmam müavini)
9. Qurbanov Aftandil Kitab oğlu - Astara rayonu, Şuvi kənd məscidi (İmam müavini)
10. Qurbanov Vüqar Ələddin oğlu - Gəncə şəhəri, "Şah Abbas" məscidi (İmam)
11. Mərcanov Mərdalı Muxəmməd oğlu - Şamaxı rayonu, Qaleybuğurd kənd məscidi (İmam müavini)
12. Əlicanov Rahil Abdulbaği oğlu - Sabirabad rayonu, Kovlar kənd məscidi (İmam müavini)
13. Yunusov Şahbaz Mirxas oğlu - Cəlilabad rayonu, Həziabad kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
14. Bayramov Rəmzin Ruşan oğlu - Masallı rayonu, Şıxlar kənd məscidi (İmam müavini)
15. Xurşidov Sobit Soliyeviç - Sabirabad rayonu, Əhmədabad kənd 2№ li məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
16. Mirzəyev Əbdülhüseyn Əbdülhəsən oğlu - Sabunçu rayonu, Nardaran qəsəbəsi "Cümə" məscidi (İmam)
17. Kərimov Seyid Kərim oğlu - Qəbələ rayonu, "Böyük Pirəli" kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
18. İbrahimov Rövşən İbrahim oğlu - Balakən şəhəri, "Mərkəzi Cümə" məscidi (İmam müavini)
19. Ömərov Xizri Şaban oğlu - Zaqatala rayonu, Car kənd məscidi (İmam müavini)
20. Talıbov İsmət Aqil oğlu - Zərdab rayonu, Qoruqbağı kəndi "Cümə" məscidi (İmam müavini)
21. Əskərov Hafiz Adil oğlu - Lənkəran rayonu, Girdəni kənd məscidi (İmam müavini)
22. Ağalarov Laçın Səməd oğlu - Qəbələ şəhər məscidi (İmam)
23. Fərəczadə Seyran Akif oğlu - Quba şəhəri, "Cümə" məscidi (İmam)
24. Ziyaddinov Ruslan Əşrəf oğlu - Xaçmaz rayonu, Qaracəlli kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
25. Səlimov Azər Ağamir oğlu - Şəki rayonu, "Baltalı" kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
26. Qiyasov Natiq Saday oğlu - Sabirabad rayonu, Muğan-Gəncəli 1 saylı kənd məscidi (Dini ayinlərin icraçısı-müəzzin)
27. Zülfüqarov Pərviz Çingiz oğlu - Qəbələ şəhəri, "Cümə" məscid (Dini ayinlərin icraçısı-müəzzin)
28. Məmmədov Nəbi Nərman oğlu - İsmayıllı rayonu, "Topçu" kənd məscidi (İmam müavini)
29. Rüstəmov Rasəf Müsəf oğlu - İmişli şəhəri, "Məşədi Həbib" məscidi (İmam)

# Vilyam Hacıyevə böyük şok...

## Sabiq icra başçısının əli hər yerdən üzülüb

***Yola salmaq üzrə olduğumuz həftə Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, 801 məhkum əfv olunub, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib.***

Bu Sərəncam şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycanın tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.

Əfv edilənlər arasında bir sıra tanınmış şəxslər, o cümlədən, sabiq məmurlar da olub.

Bəzi keçmiş vəzifəli şəxslərin isə əfv olunaraq azadlığa çıxacaqlarına dair ümidləri doğrulmayıb. Onların arasında ilk sırada dayanan isə İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı Vilyam Hacıyevdir. Vəzifədə olarkən çoxsaylı korrupsiya əməllərinə yol verən Hacıyev barədə 2020-ci il mayın 5-də məhkəmənin qərarı əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Vilyam Hacıyevin xidməti və yaşadığı ünvanlarda əməliyyat-istintaq tədbirləri həyata keçirilib, ardınca isə barəsində həbs qətimkan tədbiri seçilib. Ardınca isə o, 12 il müddətinə azadlıqdan məhrum edilib.

Sabiq icra başçısı barəsindəki həbs qətimkan tədbirinin və azadlıqdan məhrumetmə qərarının dəyişdirilməsi üçün indiyədək bir neçə dəfə vəsatət qaldırıb, apellyasiya şikayəti verib. Lakin onun vəsatətləri hər dəfə rədd olunub, apellyasiya şikayətləri təmin olunmayıb.

Hərçənd, o, hələ saxlanılarkən azadlıqda çox qalmayacağına ümid bəsləyirdi.

"Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" - bu sözləri İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı hələ haqqında həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla demişdi.

Həmin vaxt bu KİV-də və ictimai rəydə onun kimlərə və yaxud nələrəsə arxayınlığı kimi yozulmuşdu. Belə güman olunurdu ki, V.Hacıyev həbsdə çox qalmayacağına inanır və bu zaman naməlum himayədarının, yaxud himayədarlarının hər hansı formada yardımına ümid edir.

Lakin sabiq icra başçısının həmin ümidi ilk dəfə 2020-ci il mayın 15-də apellyasiya şikayətinə baxıldıqdan sonra boşa çıxmışdı. Sonrakı dönəmdə də boşa çıxmağa davam etdi.

Böyük ehtimalla, V.Hacıyevin son ümidi əfv sərəncamına qalmışdı. Lakin onun bu gözləntisi də doğrulmadı. Sabiq icra başçısının böyük xəyalqırıqlığı yaşadığını təxmin etmək çətin deyil. Yəqin ki, artıq əli hər yerdən üzülüb.

Ölkə başçısı bir sıra çıxışlarında açıq şəkildə vurğulamışdı ki, hansısa məmur kimlərəsə arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri, eyni zamanda, korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da bəyan etmişdi. Elə isə V.Hacıyev nəyə və ya kimə arxayın olaraq cinayət başında yaxalandığı, barəsindəki çoxsaylı korrupsiya əməlləri məhkəmə araşdırması tərəfindən təsdiqləndiyi halda "Hər şey yaxşı olacaq" deyir, hətta hansı məntiqlə "Haqq yerini tapacaq" deyirdi?



Sabiq başçının məntiqi ilə "haqqın yerini tapması" nədir? Vəzifəsindən sui-istifadə edən, dövlət vəsaitlərini talayan bir vəzifəli şəxsin cəzasız qalmasımı? İş yerindən, mənzilindən talanla əldə edilmiş milyonlarla manat vəsait aşkarlanan bir yüksək post sahibi barəsində heç bir hüquqi ölçü götürülməməsimi?!

Görünən odur ki, V.Hacıyev bundan sonra həbsdə qaldığı müddətdə yalnız vəzifədə olarkən yol verdiyi, qol qoyduğu maliyyə cinayətlərinin deyil, eyni zamanda yuxarıdakı absurd yanaşmanın, məntiqsiz mövqenin cəzasını çəkməli olacaq. Qanunsuz işlərindən peşmanlığını ifadə etmək yerinə "Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" kimi gülünc, populist mesajlar vermək, davamlı vəsatətlərlə, apellyasiya şikayətləri ilə cəmiyyəti sanki təqsirsizliyinə inandırmağa çalışmaq sabiq icra başçısının böyük səhvi idi. Həm də, ən azı, korrupsiya əməlləri qədər böyük bir səhv idi.

Axırı da belə...

Nə etməli, Vilyam müəllim, özü yıxılan ağlamaz.

***Toğrul Əliyev***

# "Şərurlu İsfəndiyar" ətrafında 1 milyon manatlıq qalmaqal

## "Külək əkən" tikinti maqnatının "fırtına biçməsi" təəccüblüdürmü?

***Bu yaxınlarda maraqlı bir məlumat yayıldı. Həmin məlumatda bildirilirdi ki, "Şərurlu İsfəndiyar" kimi tanınan tikinti maqnatı İsfəndiyar Axundovun sahibi olduğu "Şərur" MTK-ya qarşı dələduzluq edən Rəşad Həsənovun məhkəməsi başlayır.***

Adıçəkilən şəxsin isə Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi (Dələduzluq - külli miqdarda ziyan vurmaqla törədildikdə) ilə təqsirləndirildiyi vurğulanırdı.

O da qeyd edilirdi ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə baxılacaq.

İsfəndiyar Axundov olayın təfərrüatlarını Qaynarinfo-ya açıqlamış və bu açıqlamadan məlum olmuşdu ki, Rəşad Həsənov "Şərur" MTK-da komendant işləyib. O, təkcə İsfəndiyar Axundova deyil, 20-dən çox adama qarşı dələduzluq əməli törədib.

"Şərur" MTK-nın adından istifadə edərək 20-dən çox adamı aldadıb. Təkcə mənə qarşı 1 milyon manata yaxın dələduzluq edib", deyə tikinti maqnatı bildirib. İsfəndiyar Axundovun sözlərinə görə, Rəşad Həsənov tanıdığı şəxs olub: "Ailəsini də tanıyırdım. Ona görə işə götürmüşdüm. Amma dələduzluq etdi. Şirkətimizdə komendat işləməklə bərabər, həm də mebel müəssisəsinin rəhbəri idi. Onun ailəsini tanıdığıma görə etibar etmişdim. Amma etibarımdan sui-istifadə edərək camaatı aldatdı".

İsfəndiyar Axundov Rəşad Həsənovun 20-dən çox adama qarşı dələduzluq etdiyini bildirsə də, iş üzrə zərərçəkmiş kimi onun özü və "Şərur" MTK tanınıb.

Onu da deyək ki, uzun illər "Şərurlu İsfəndiyar" kimi tanınan tikinti maqnatının adı ətrafında müxtəlif qalmaqallar baş verib. Bu qalmaqalların motivi müxtəlif olsa da, hədəfi eyni olub - iş adamı ilə şirkəti! Elə internetdə kiçik bir axtarış aparmaq kifayətdir ki, bəhs etdiyimiz qalmaqalların bir çoxuna dair KİV-də yer alan materiallarla qarşılaşaq.

"Şərurlu İsfəndiyar" və MTK-sı indiyədək nədə ittiham edilməyib?

Bir neçə nümunə: elə bu ilin əvvəllərində sahibkar Elmir Məhərrəmov 2009-cu ildə "Şərur İnşaat" MTK-ya təxminən 27 min manat məbləğində şifer satdığını, şirkətin isə pul ödəyəcəyi tarixə qədər ona girov kimi Yasamal rayonu ərazisində tikilən bir binadan mənzil verdiyini, lakin pulun ödənilmədiyini bildirib. Həmin vaxt İ.Axundovun şirkətinin rəsmisi isə cavab olaraq bildirib ki, sözügedən mənzil və pul ilə bağlı sənədləşmə onların yox, "MUR-AY" MMC-nin adından aparılıb. Ancaq E.Məhərrəmov bu məqama da aydınlıq gətirib, ona müqavilə bağlananda deyilib ki, "MUR-AY" MMC məhz "Şərur İnşaat"-ın podratçısı olduğu üçün sənədləşmə bu cür aparılmalıdır. Qarşı tərəf sözügedən ittihamı da rədd edib.

Bir qədər əvvələ qayıdaq: 2019-cu ildə Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda dələduzluqda təqsirləndirilən Alışov Cahangir Həsənağa oğlu və Fətəliyev Habil Məmməd oğlunun cinayət işi üzrə məhkəmə iclası keçirilmişdi. Hakim Eldar Mikayılovun sədrliyi ilə baş tutan məhkəmə iclasında zərərçəkmiş Ruhiyyə Rəsulova ifadə vermişdi. O, həbs edilən şəxslərin hər ikisini tanıdığını bildirmiş və demişdi ki, "Yüksəliş" MTK-dan ev almaq üçün həmin şəxslərə 33 min pul verib, amma alacağı birotaqlı ev başqa şəxslərə də satılıb. Zərərçəkmiş ələvə etmişdi ki, bu işdə adı keçən Zaur adlı şəxs ona 3 min manat qaytarıb: "Zaur ev alqı-satqısı ilə məşğul idi. İstintaqda 3 min verib dedi ki, həmin pul ona çatandır". Həbs edilən Habil Fətəliyev isə demişdi ki, Zaura həmin 3 min manatı özü verib, ümumiyyətlə isə zərərçəkmişlərin pulu ödənilib.

Hakim isə bildirmişdi ki, 3-4 aydır davam edən məhkəmə istintaqında eyni vədlər verilir, amma bir nəfər də olsun məhkəməyə barışıq ərizəsi təqdim etməyib.

Habil Fətəliyev də 81 nəfərlə razılığa gəldiklərini demişdi.

Lakin bununla bağlı prokuror maraqlı arayış verərək bildirib ki, zərərçəkən şəxslər "Şərur MTK"ya göndərilir. Həmin şəxslərdən əlavə ödəniş tələb edilir. Belə ki, zərərçəkənlər "Yüksəliş" MTK-dan mənzilin kvadratına görə 400 manat ödəyib. "Şərur" MTK isə mənzilləri 900-1250 manata satır. Bununla da zərərçəkənlərdən 400 manatdan əlavə ödənişlər tələb edilir və belə olan halda mənzil verilir. Prokuror demişdi ki, bu zərərin ödənməsi demək deyil.

Cahangir Alışov və Habil Fərzəliyevin vəkilləri bildirmişdi ki, "Şərur" MTK-nın təklif etdiyi mənzillər təmirli olduğu üçün baha satılır. Buna məhkəmədə iştirak edən zərərçəkmişlərin reaksiyası ilginc olmuşdu: ""Şərur" MTK 1250 manata ev təklif edir. Amma bu bizi qane eləmir. Yasamalda o qiymətə ev almağa dəyməz. Camaat 1300 manata "Elmlər Akademiyası" tərəfdə ev alır. "Şərur" MTK adını təmirli qoyub həmin evləri satır. Amma divara rəng vurub təmir adı ilə satmazlar. Bir nəfər gedib həmin evlərə baxsın. Görün, ona təmir demək olarmı".



Burada daha bir ilginc detal isə ondan ibarət idi ki, mənzil fırıldaqlarının qurbanı olan şəxslərin problemlərinin həlli ilə bağlı dövlət tərəfindən ayrı-ayrı şirkətlərə göstərişlər verilib. Həmin şirkətlər müəyyən güzəştlərlə mənzil fırıldaqlarının qurbanı olmuş şəxslərə yardım etməlidirlər. Lakin aydın olmuşdu ki, "Şərurlu İsfəndiyar"ın şirkəti bu göstərişin icrasından özünəməxsus şəkildə yaraalanmaq istəyib.

Biz hələ uzun illər boyunca adıçəkilən tikinti maqnatının öz şirkəti tərəfindən tikilən binalarda mənzil alan vətəndaşların aldadılması ilə bağlı çoxsaylı şikayətləri demirik.

İndi isə belə məlum olur ki, "Şərur" MTK sahibinin özünü və şirkətini aldadıblar, ona qarşı 1 milyon manatlıq dələduzluğa yol verilib.

Adamın yadına istər-istəməz məşhur atalar sözü düşür; "Külək əkən fırtına biçər"...

***Toğrul Əliyev***



# Azərbaycanda kosmik fəaliyyətin prinsipləri açıqlanıb

***Azərbaycanda kosmik fəaliyyətin prinsipləri məlum olub.***

"Unikal" xəbər verir ki, bu barədə "Kosmik fəaliyyət haqqında" yeni qanun layihəsində bildirilib. Belə ki, kosmik fəaliyyət aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

Kosmik fəzadan sülh naminə istifadə edilməsi;

Milli maraqların qorunması;

Kosmik resurslardan səmərəli istifadə olunması;

Milli fəaliyyətə dövlət tərəfindən nəzarət edilməsi;

Kosmik fəaliyyətin və kosmik sənayenin təhlükəsizliyi, kosmik tullantıların ətraf mühitə təsirinin azaldılması.

Kosmik obyektlərin dövlət qeydiyyatına alınması müəyyənləşib. Bu barədə "Kosmik fəaliyyət haqqında" yeni qanun layihəsində qeyd olunub.

Qanun layihəsinə görə, Kosmik fəaliyyət subyektlərinin kosmik obyektlər üzərində mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi, məhdudlaşdırılması (yüklülüyü), başqasına keçməsi və bu hüquqlara xitam verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada Reyestrdə qeydiyyata alınmalıdır. Reyestrin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Eyni zamanda kosmik fəzada olan kosmik obyektin bu Qanunun tələblərinə əməl etməklə özgəninkiləşdirilməsinə, dövlət mülkiyyətində olan kosmik obyektlərin "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq özəlləşdirilməsinə, istismara yararsız hala düşmüş və məhv olmaya qarşı tam sığortalanmış kosmik obyektlər üzərində mülkiyyət hüququnun sığorta müqaviləsində nəzərdə tutulduğu halda sığorta ödənişi müqabilində sığortaçılara keçməsinə yol verilir.

-Azərbaycan Respublikasının ərazisində aşkar edilmiş kosmik obyekt üzərində mülkiyyət hüququ Müqaviləyə və Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun müəyyən edilir.

-Reyestrdə qeydiyyata alınmış kosmik obyektlərə, həmçinin belə kosmik obyektlərin orbitdən çıxarılmasına dair məlumatlar milli kosmik operator tərəfindən Müqavilədə nəzərdə tutulmuş qaydada BMT-yə təqdim edilir.

Azərbaycanda yerüstü kosmik infrastrukturun istismarına lazımi şərait yaradılması üçün onların ətrafında Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq xüsusi hüquqi rejimli mühafizə zonaları yaradılır. Qanun layihəsinə əsasən, yerüstü kosmik infrastruktura həmçinin aşağıdakılar aid edilir:

- kosmik obyektlərin yerüstü idarəetmə mərkəzləri;
- kosmik fəzada olan kosmik obyektlə telekommunikasiyanı təmin edən yer stansiyaları;
- kosmik raket kompleksləri və vasitələri, kosmik obyektlərin uçuş və eniş poliqonları və platformaları,
- kosmik uçuşların yerüstü idarəetmə məntəqələri;
- kosmik uçuşlara hazırlıq mərkəzləri;
- kosmik obyektin saxlanc yerləri və sınaq məntəqələri;
- kosmik fəaliyyət üçün zəruri olan digər yerüstü kosmik infrastruktur qurğular və vasitələr.

***Anar Kəlbiyev***



## Prokurorluq və DİN 20 il əvvəl baş verən qətllə bağlı məlumat yaydı

***Baş Prokurorluq və Daxili İşlər Nazirliyi Ordubadda 20 il əvvəl baş verən qətl barədə birgə məlumat yayıb.***

”Unikal” xəbər verir ki, məlumatda deyilir ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Muxtar Respublikanın Daxili İşlər Nazirliyi, eləcə də Ordubad rayon prokurorluğu və rayon polis şöbəsinin əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilən istintaq-əməliyyat tədbirləri ilə Ordubad rayonunun Xurs kəndində qeyri-aşkar şəraitdə qəsdən adam öldürmə cinayəti müəyyən edilib.

Aparılan araşdırmalarla Ordubad rayonunun Xurs kənd sakini 1967-ci il təvəllüdlü Elman Tarverdiyevin 2003-cü ildə şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bacısı Məlahət Tarverdiyeva qəsdən öldürərək yaşadığı evin həyətində basdırmasına əsaslı şübhələr müəyyən olunub.

Meyit basdırıldığı yerdən qazılaraq çıxarılıb və ekspertiza təyin edilərək müayinəsi aparılıb.

Faktla bağlı Ordubad rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsilə başlanıb.

Hazırda intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Rəşad Nəbiyev Ağcabədidə vətəndaşları qəbul edəcək

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev 17 may 2023-cü il tarixində saat 10:00-da Ağcabədi şəhərində yerləşən Yeni Azərbaycan Partiyasının Ağcabədi rayon təşkilatının inzibati binasında Tərtər, Bərdə, Ağdam, Laçın və Ağcabədi rayonlarının sakinlərini qəbul edəcək.***



”Unikal” xəbər verir ki, qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda may ayı üzrə vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçiriləcək.

Nazir bu bölgələrdə göstərilən nəqliyyat, telekommunikasiya, o cümlədən internet, televiziya və radio yayımı və poçt xidmətləri sahəsində əhalini maraqlandıran məsələlərlə bağlı vətəndaşları dinləyəcək.

Qəbula yazılmaq üçün 16 may 2023-cü il tarixinə qədər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Çağrı Mərkəzi (1655) və elektron poçtu (office@mincom.gov.az), 010 250 48 48 və 012 598 58 58 (daxili 222 və 290) nömrəli telefonlar vasitəsilə müraciət etmək mümkündür.

# Azərbaycan elmində milyonluq korrupsiya

## Opponentlərə ayrılan pulların taleyi ilə bağlı şok ittihamlar irəli sürülür - Hədəfdə bəzi rektorlar və institut direktorlarıdır!

***Təzəlikcə məlum oldu ki, Azərbaycanda tədqiqatçıların sayı hər keçən il azalır. Elə Dövlət Statistika Komitəsinin məlumatları da bunu sübut edirdi. Komitənin yaydığı rəqəmlərə əsasən, Azərbaycanda 2021-ci ildə bir milyon əhaliyə düşən tədqiqatçı sayı 834 nəfər olub. Öncəki illərdə də azalma qeydə alınıb.Dövlət Komitəsinin əvvəlki illəri əhatə edən statistikasına diqqət edək:***

2018-ci il - 956 nəfər;
2019-cu il - 871 nəfər;
2020-ci il - 849 nəfər.

Yerli medianın yazdığına görə, ölkəmizin elm sahəsindəki problemi yalnız tədqiqatçıların sayının az olması deyil. Bildirilir ki, tədqiqatçıların nüfuzu onların əsərlərinə, məqalələrinə edilən istinadların sayı ilə ölçülür. Bununla əlaqədar dünyada müxtəlif bazalar mövcuddur. Məsələn, “Scopus” və “Web of Science” bazalarındakı nəşrlər və onlara istinadlar bir ölkədə elmin əsas göstəricilərindən sayılır.

Beynəlxalq reytinq təşkilatları universitetlərin beynəlxalq reytinqlərini hesablayarkən əsas götürdükləri meyarlardan biri də bu sistemdəki nəşrlər və onlara istinadlardır. Dünyanın ən məşhur elmi-tədqiqat jurnallarında azərbaycanlı alimlərin adları çox az görünür .

Bu şübhəsiz ki, kifayət qədər narahatlıq doğuran, xoşagəlməz haldır.

Lakin ortada daha çox narahatlıq doğuracaq, xoşa gəlməyəcək məqam var. Elə bir məqam var ki, həm Azərbaycanda tədqiqatçıların ilbəil azalmasında, həm də universitetlərimizin beynəlxalq reytinq siyahılarından kənarda qalmasında həlledici detallardan biri kimi qəbul oluna bilər. Məsələ orasındadır ki, son zamanlar sosial şəbəkələrdə aparılan müzakirələr zamanı ortaya çıxıb. ”Unikal” qəzetinin məlumatına görə, Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasov facebook sosial şəbəkəsindəki səhifəsində elmdə və təhsildə mənimsəmələrin çoxşaxəliliyindən bəhs edərkən şok ittihamlarla çıxış edib.

”Elmi iş müdafiəsi prosesində dövlətin rəsmi opponentlər üçün ayırdığı milyonlar bəzi ali məktəb və akademiya institutları rəhbərliyi tərəfindən xunxarcasına mənimsənilir, opponentlərə ödəniş isə birbaşa dissertanta ödətdirilir. Dəhşətdir!” deyən şöbə müdiri əlavə edib: ”Bəli, alimçilik içdən yeyir, dağıdır. Diqqət edib araşdıran isə hələ ki, yoxdur. Amma bu o demək deyil ki, araşdırılmayacaq...”

Əgər professorun dedikləri doğrudursa, yəni elmi iş müdafiəsi prosesində dövlətin rəsmi opponentlər üçün ayırdığı milyonlar bəzi ali məktəb və akademiya institutları rəhbərliyi tərəfindən mənimsənilir, opponentlərə ödəniş isə birbaşa dissertanta ödətdirilirsə, bu, utancverici məqamdır. Belə reallıqda biz Azərbaycan elmində və təhsilində hansı sıçrayışdan danışa, ölkədə alimlərin, tədqiqatçıların artmasına necə ümid edə bilərik?!

Onu da deyək ki, bundan bir müddət əvvəl İdris Abbasov daha bir ilginc məqama toxunmuşdu. O, modern.az saytına açıqlamasında demişdi ki, bu yaxınlarda dissertasiya müdafiə edib, bütün mərhələlərdən keçmiş 412 nəfərin işinə imtina verilib. Sitat: ”Bu, xalqı ələ salmaq, dövləti saymamaq, özbaşına hərəkət etməkdir. 412 nəfərə imtina verilib. Bəs yaxşı, burada məsuliyyət daşıyan heç bir elmi rəhbər, heç bir opponent yoxdurmu? Elmlər doktoruna opponentlik edən şəxsə 814 manat birdəfəlik pul verilir. Elmlər doktorunun hər birinin dörd opponenti olur. Belə olan halda 412 nəfərin işindən imtina dövlətə ən azı bir milyon manat zərər deməkdir. Bu milyon manatı dövlət elmi müəssisəyə alim yetişdirməsi üçün ayırmışdı. Bəs elmi müəssisə niyə cəzalandırılmır? Buna baxan Elmi Şura, elmi rəhbər və ayrılan pulları yeyən opponentlər var. Belə çıxır ki, dövlətdən pulu alıb, sonra saymazyana deyirlər ki, biz istədiyimiz kimi edib, ziyanımızı vuracağıq...”

Ötən il filologiya üzrə fəlsəfə doktoru, dosent Vüsalə Ağabəyli də bakixeber.az-a açıqlamasında elmi iş üçün ayrılan pullar və onların taleyi, eləcə də, rəsmi opponentlərin gözlərini dissertantların cibinə tikməsi ilə bağlı ilginc məqamlara toxunmuşdu. O, bildirmişdi ki, Nazirlər Kabinetinin qərarına əsasən, opponentliyə görə əməyin ödənilməsi ilə bağlı qərar var. Sitat: ”Təəssüf ki, opponentliklə bağlı qərarın icrası ilə onun arxa fonunda duran mahiyyət aşkar təzad təşkil edir... Elmlər doktorluğu dərəcəsi üzrə opponentliyə 40 saat, fəlsəfə doktorluğu üzrə opponentliyə 20 saat həcmində məvacib ayrılır. Bunlar da saat hesabı hesablanır. Vəsait həmin o təşkilatın, ali təhsil müəssisəsinin, harada ki, opponentlik olunur o qurumun hesabına ödənilməlidir. Amma işin başqa tərəfi də var. Bu 40 saat da saat hesabı olaraq 2 manat 31 qəpikdən hesablanır, heç üç manat etmir. Bu adam neçə nəfərə opponentlik etməlidir ki, normal məvacibi ortaya çıxsın. Ona görə də elm adamlarının vicdanlı opponentliyə marağı qalmır. Çünki həm opponentlərin qonorarları ödənilmir, ödənilsə də belə bu çox cüzi, kiçik bir məbləğ şəklində ödənilir. 40 saatı götürüb 3 manata vursaq bu 120 manat edir. Bu adam opponentlik etməlidir, rəylər yazmalıdır, çıxışlar etməlidir, elmi işi bir-bir araşdırıb iradlarını bildirməlidir, təzadlı fikirlərini söyləməlidir, bunun müqabilində isə il boyu onun alacağı məbləğ təxminən 120 manat olur... Bu səbəbdən də bütün sahələrdə insanlar dəllallığa keçiblər. Uzun müddətdir ki, belədir. Bəlkə indi bir az azalmağa doğru gedir. Çünki bu qədər dava-dalaş edib, şikayət etmişik, ona görə də bir az istedadlı adamlara meydan verməyə çalışırlar. Opponentdə verilən məbləğ cüzi olduğu üçün bəziləri dissertantın özündən pul umurlar... Dəyərli alim opponentliyə əmək sərf edir, araşdırır, elmi işdəki nöqsanları üzə çıxarır, bunlar hamısı dissertantın və elmi işin xeyrinə olan məsələlərdir. Böyük zəhmətlərinin qarşılığında da vicdanlı opponentlərə ya qonorar ödənilmir, ya da çox cüzi məbləğ verilir. Amma məlumatıma görə, qonorarın məbləği cüzi olduğu üçün opponentlərə pul vermirlər”.



Göründüyü kimi, ortada kifayət qədər acınacaqlı mənzərə və xoşagəlməz gerçəklik hökm sürür. Elmi iş üçün rəsmi opponentlərə dövlət tərəfindən ayrılan və onsuz da alimləri qane etməyən vəsaitlər kimlərinsə tamahının qurbanına çevrilir. Məsələnin aidiyyatı qurumlar tərəfindən ciddi şəkildə araşdırılmasına və lazımi tədbirlər görməsinə həqiqətən böyük ehtiyac var. Əks halda, kimlərsə elm sahəsində açdığı ”bazar” sayəsində var-dövlətini artırmağa, əvəzində də alimlərimizin sayı azalmağa, tədqiqatçıların sıraları seyrəlməyə davam edəcək...

***Sənan Mirzə***

## 5.3.12. azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Turizm sahəsində azad sahibkarlıq təşviq edilməlidir

## Göydəniz Qəhrəmanov: "Biz müşahidə edirik ki, sahibkarlar da son illər turizm sahəsinə investisiya qoymağa can atırlar".

***Bu günlərdə sosial şəbəkədə Laçında tikiləcək "Kamper Park Həkəri" turizm mərkəzinin maketlərinin fotoları yayımlandı. Məlumatlara görə, Azərbaycanın dilbər guşəsi olan Laçının böyük turizm potensiallarından olan Həkəri çayının ətrafında çimərliyin salınacağı da bildirilirdi. Azərbaycanda qeyri-neft sektorunda ən gəlirli sahə olan turizm sektorunun işğaldan azad edilmiş ərazilərimizdə də inkişafı nəzərdə tutulur. Bəs görəsən turizm sektorunda sahibkarlığın inkişafı istiqamətində hansı tədbirlərin həyata keçirilməsinə ehtiyac var? Xüsusilə böyük turizm potensialı olan işğaldan azad edilmiş ərazilərimizdə iqtisadiyyatın bu qolunun təşviqi necə həyata keçirilməlidir?***

Bu suallara cavab tapmazdan öncə qeyd edək ki, işğaldan öncə həmin ərazilərdəki sanatoriyalar, istirahət məkanları öz şöhrəti ilə dünyaya səs salıb. Onlardan biri də "İstisu" kurortudur. Hələ bir müddət öncə Azərbaycan hökumətində işğaldan azad olunmuş Kəlbəcər rayonundakı "İstisu" sanatoriyasında dövlət investisiyası cəlb olunaraq yenidənqurma işləri aparılacağı barədə məlumatlar yayılmışdı. Yayılmış informasiyaya görə, dövlət qurumları tərəfindən "Yuxarı İstisu", "Aşağı İstisu", "Keşdək", "Qarasu", "Mozçay", "Qotursu" yataqlarından istifadə olunmaqla mineral su istehsalının təşkili layihəsi hazırlanıb.

"Layihə təxminən 3 milyon manat dəyərində qiymətləndirilir. Həmçinin bütün bu mineral su bulaqlarından istifadə olunmaqla müasir "İstisu" sanatoriyasının tikintisi layihəsi də hazırlanıb. Layihələrin dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilməsi planlaşdırılır. İnvestorlara dövlət tərəfindən güzəştli kreditlər, gömrük və vergi güzəştləri və investisiya təşviqi sənədi veriləcək", - deyə hökumətdəki mənbə bildirib.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının prezidenti, turizm mütəxəssisi Ruslan Quliyev işğaldan azad olunmuş ərazilərdə böyük turizm potensialının olduğunu, həmin ərazilərdə




azad sahibkarlığın inkişafına dövlət tərəfindən böyük dəstək göstəriləcəyini söylədi. Onun sözlərinə görə, "İstisu" sanatoriyasının yenidən qurulması Azərbaycanda turizm bazarını hərəkətə gətirəcək.

Ekspert deyir ki, Azərbaycanda olan mineral su ehtiyatının 33%-i Kəlbəcər və Laçın rayonlarının payına düşür. Bu rayonlardakı mineral su ehtiyatının 42%-i Laçının, 58%-i Kəlbəcərin ərazisindədir. Yalnız Kəlbəcər rayonunun Tərtər çayı hövzəsində 400-dən artıq mineral su yatağı var. Hələ sovet dövründə sağlamlıq turizmi imkanlarının mövcud olduğu Kəlbəcərin İstisu termal mərkəzi, Şuşanın, Ağdamın bolneoloji sanatoriyaları bütün SSRİ-də məşhur olub.

Onun sözlərinə görə, hələ sovet dövründə respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. 1970-ci illərdən başlayaraq burada yaradılmış turizm istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib: "1990-cı illərdə Qarabağın ermənilər tərəfindən işğalından sonra bu zonada turizmin inkişafı da dayanıb"

"Azərbaycan Turizm Agentlikləri Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov isə bildirib ki,ümumilikdə ölkəmizdə turizm sektorunda müsbət dinamika müşahidə olunur. Onun sözlərinə görə, belə davam edərsə, ilin sonunadək turizm sahəsində pandemiyadan əvvəlki sayda turist axını bərpa oluna bilər.

G. Qəhrəmanov deyir ki, son illər turizm sahəsi dövlətin prioriteti sayılır. Azərbaycana valyuta axını, yeni iş yerlərinin açılmasına səbəb olur.

"Biz müşahidə edirik ki, sahibkarlar da son illər turizm sahəsinə investisiya qoymağa can atırlar. Bu çox yaxşı göstəricidir. Biz Assosiasiya olaraq istəyərdik ki, turizm bölgələrinə sürət qatarları fəaliyyətə başlasın. Çünki, logistika baxımından turistlər 3 saatdan artıq səfər etmək istəmirlər.

Əgər sürət qatarları olarsa, biz ən ucqar turizm bölgələrinə səfərlər təşkil edərdik. Bölgələrdə hava limanlarının yenidən fəaliyyəti də turist axınına təsir edən amillərdəndir" deyə G. Qəhrəmanov bildirib.

Onun sözlərinə görə, xarici ölkələrdə sahibkarlığın inkişafı üçün təşviq proqramları var: "Çox yaxşı olardı ki, belə proqramlar bizdə də həyata keçirilsin. Ölkəmizdə altı gündən çox qalan turistlərə hər turistə görə turizm şirkəti əlavə təşviqedici paketlər alır. Bu isə həmin turizm şirkətini ölkəyə daha çox turist gətirməyə həvəsləndirir, eyni zamanda tur paketlərin qiymətləri ucuzlaşır".

G. Qəhrəmanov onu da əlavə edib ki, bu hava yollarında satılan biletlərə də şamil oluna bilər. Bu kimi təşviqedici addımlar sahibkarları həvəsləndirir, bu sahəyə investisiya axınını artırır.

Məlumat üçün qeyd edək ki, 2023-cü ilin yanvar-mart aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən tikinti sahəsində 32,6%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 24,3%, informasiya və rabitə sahəsində 17,8%, qeyri-neft sənayesində 4,6%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 3,4%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3,0% artım nəticəsində qeyri neft-qaz sektorunda ÜDM 4,9% artaraq 17,0 milyard manat olub.

Xatırladaq ki, 2023-cü ilin yanvar-mart aylarında Azərbaycan Respublikasına dünyanın 157 ölkəsindən 368,9 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 49,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 32,3 faizi Rusiya Federasiyası, 21,5 faizi Türkiyə, 9,1 faizi İran, 5,6 faizi Gürcüstan, 4,2 faizi Hindistan, 2,7 faizi Pakistan, 2,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Qazaxıstan, hər birindən 1,7 faiz olmaqla Səudiyyə Ərəbistanı və Özbəkistan, hər birindən 1,6 faiz olmaqla Ukrayna və Belarus, 1,4 faizi Küveyt, 1,3 faizi Türkmənistan, 10,8 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 76,9 faizini kişilər, 23,1 faizini qadınlar təşkil etmişdir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Türkiyə və Azərbaycan birgə istehsal müəssisələri yaradacaq

***Vətən Müharibəsi iki qardaş xalq arasında münasibətlərin hansı səviyyədə olduğunu bir daha sübut etdi.***

Bunu Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov türkiyəli həmkarı Hulusi Akarla birlikdə Konyada keçirilən "Anadolu Qartalı-2023" beynəlxalq taktiki-uçuş təlimləri çərçivəsində çıxışı zamanı deyib.

Nazir Şuşa bəyannaməsinin yüksək səviyyəli münasibətlərin bariz nümunəsi olduğunu bildirib.

"Bir sıra mühüm layihələr həyata keçirmişik, bundan sonra birgə istehsal müəssisələrinin yaradılmasına çalışacağıq. Türkiyə müdafiə sənayesinin son illərdə dünyada əldə etdiyi uğurlar da bizi sevindirir. Bu istiqamətdə İstanbulda keçirilən TEKNOFEST-də Azərbaycan Prezidenti İlham Əliyev yaxın zamanlarda bəzi silahların ölkəmizdə istehsal olunacağını açıqlayıb. Vətən müharibəsi iki qardaş xalq arasında münasibətlərin hansı səviyyədə olduğunu bir daha sübut etdi. Biz dünyaya göstərdik ki, ən çətin anlarda bir-birimizin yanındayıq", - Zakir Həsənov qeyd edib.

# BQXK Laçın yolunda əməliyyatları dayandırıb

***Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) aprelin 29-dan bəri Laçın yolu ilə humanitar yardım həyata keçirmir.***




Bu barədə BQXK-nin Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.

BQXK nümayəndəsi humanitar yardımla bağlı statistik göstəriciləri açıqlayıb: "Ümumilikdə, BQXK 283 nəfərin Ermənistana, 2313 nəfərin isə Ermənistandan Laçın yolu ilə keçərək ailələri ilə qovuşmasına yardımçı olub. Biz gələcəkdə də tərəflərin və ailələrin razılığı və onlarla müzakirələrin nəticəsində, ailə qovuşmalarına neytral vasitəçi olaraq dəstək verməyə hazırıq.19 dekabr 2022-ci il tarixindən bəri BQXK humanitar neytral vasitəçi olaraq, həmçinin Laçın koridoru boyu 50 tibbi təxliyə həyata keçirib. Bu əməliyyatlar zamanı 394 nəfər xəstə və onları müşayət edən şəxslər təxliyə olunub və səhiyyə qurumlarına dərmanlar çatdırılıb".



# 4 ayda pensiya təyin edilənlərin sayı

***2023-cü ilin yanvar-aprel ayları ərzində 58,8 min pensiya, müavinət, təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada aparılıb.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Modern.az-a bildirilib ki, onlardan 12,8 mini pensiya, 46 mini müavinət və təqaüd təyinatı olub.

Nazirlik tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektronlaşdırılıb.

Həmin e-təyinat sistemləri vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən müvafiq təyinatların e-sistem üzərindən avtomatik aparılmasına imkan verir.

# Rabitə administrasiyaları arasında görüş keçirilib

***Qubada Azərbaycan və Rusiyanın rabitə administrasiyaları arasında yerüstü xidmətlər üzrə koordinasiya görüşü başlayıb.***

Bu barədə “Unikal”a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

Məlumata görə, görüşdə ölkəmizi nazirliyin nümayəndələri ilə yanaşı, Dövlət Radiotezliklər İdarəsi, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi, “Radio Televiziya Yayımı və Peyk Rabitəsi” İB və mobil rabitə operatorlarının mütəxəssisləri təmsil edirlər.

Koordinasiya görüşündə müxtəlif tezlik zolaqlarından, o cümlədən radio və televiziya yayımı, yeni nəsil mobil rabitə şəbəkələri və digər yerüstü texnologiyaların tətbiqi üçün müvafiq tezlik zolaqlarından sərhədyanı ərazilərdə maneəsiz istifadənin təmin edilməsi məqsədilə zəruri texniki təhlillər və hesabatlar aparılır. Həmçinin sözügedən tezlik zolaqlarının koordinasiyası üçün milli maraqlara uyğun prinsip və meyarların müəyyən edilməsi nəzərdə tutulur.

# Bu il Ucarda sənaye inkişaf edib

***Ucar rayonunda sənaye müəssisələrində 2023-cü ilin yanvar-mart aylarında 4178,9 min manatlıq məhsul istehsal edilib.***

2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə 749,3 min manat az məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. Cəmi istehsalın 4178,9 min manatı, 100,0 faizi müəssisələrin əsas fəaliyyətindən yaranıb.

2023-cü ilin yanvar-mart aylarında sənaye sahəsində istehsalın və xidmətlərin 985,2 min manatı və ya 23,6 dəfə dövlət sektorunun, 3193,7 min manatı və ya 76,4 faizi qeyri-dövlət sektorunun payına düşüb. O cümlədən 2023-cü ilin yanvar-mart aylarında istehsal və xidmətlərin 796,6 min manatı və ya 19,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 188,6 min manatı və ya 4,5 faizi isə suyun təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 3153,6 min manatı və ya 75,5 faizi emal sənayesi sahəsində olub.

***Ucar Statistika idarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov***

# Xarici KİV-də Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı məqalələr yayımlanıb




***Dünyanın siyasi tarixində özünəməxsus yeri olan, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi nüfuzlu xarici KİV tərəfindən geniş işıqlandırılıb.***

KİV-də yayımlanan məqalələrdə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən söz açılıb, onun dünyanın böyük siyasət və dövlət xadimləri ilə bir sırada dayandığı qeyd edilib.

Türkiyənin Anadolu agentliyində yayımlanan “Azərbaycanın ulu öndəri Heydər Əliyev anadan olmasının 100-cü ildönümündə anılır” sərlövhəli məqalədə “Şəxsiyyətin ölkənin və xalqın tarixində oynadığı rolu Heydər Əliyevin həyatının timsalında dərk etmək mümkündür” fikri xüsusi vurğulanıb. Məqalədə ulu öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif məqamları, sovet dövründə Azərbaycana rəhbərlik etdiyi, daha sonra SSRİ-də yüksək vəzifədə çalışdığı dövr ətraflı işıqlandırılıb.

Həmçinin əbədiyaşar liderin müstəqil Azərbaycanın Prezidenti kimi, respublikanın daxili və xarici siyasətdə qazandığı uğurlarda misilsiz xidmətləri diqqətə çatdırılıb, ulu öndərin Türkiyənin dövlət başçıları ilə görüşlərindən söz açılıb.

Anadolu agentliyinin türkdilli versiyasında yer alan xəbərdə isə Türkiyənin Poçt və Teleqraf Təşkilatının ümummilli liderin 100 illik yubileyi münasibətilə xatirə əsginası və xüsusi zərf çap etdirdiyi vurğulanıb. Bildirilib ki, bu əsginas Poçt və Teleqraf Təşkilatının muzeyində nümayiş etdiriləcək.

Türkiyənin “TRT Haber” kanalının saytında yayımlanan məqalədə isə 80 illik ömrünü xalqına xidmətə həsr etmiş Heydər Əliyevin Azərbaycanın ən çətin anlarında xalqının yanında olduğu, doğma Vətənini hər cür bəlalardan qoruyaraq dinamik inkişaf yoluna çıxardığı bildirilib. Məqalədə Azərbaycan xalqının böyük oğlunun xatirəsini daim ən dərin ehtiramla yad etdiyi vurğulanıb, 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan olunduğu, ilin əvvəlindən başlayan silsilə tədbirlərin il ərzində davam etdiriləcəyi əksini tapıb.

“HaberGlobal” televiziyasında ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə İstanbul, Ankara və digər şəhərlərdə keçirilən silsilə tədbirlərdən söz açılıb, Türk dünyasının böyük oğlu, ümummilli liderin xatirəsinin qardaş ölkədə də ən yüksək ehtiramla yad edildiyi vurğulanıb.

Türkiyənin “Milliyet”, “Hürriyet” və digər xəbər saytlarında yer alan xəbərlərdə də ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərindən söz açılıb.

İtaliyanın aparıcı kütləvi informasiya vasitələrində Azərbaycan xalqının dahi lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar məqalələr dərc olunub. “Il Sole 24 Ore” televiziyasının, “Libero”, “Notizie Tiscali”, “Askanews”, “Insideover”, “Agenzia Nova” informasiya agentliklərinin yaydığı materiallarda ümummilli liderin xilaskarlıq və quruculuq missiyasından, Azərbaycan xalqının ictimai-siyasi həyatında və dövlətçilik tarixindəki misilsiz rolundan bəhs edilib.

“Rossiyskaya qazeta” nəşri “Heydər Əliyev: tarixi şəxsiyyət” məqaləsində ulu öndərin fəaliyyətinin Moskva dövründən söhbət açarkən Heydər Əliyevi ən irimiqyaslı qlobal problemləri həll etməyə qadir şəxsiyyət kimi səciyyələndirib. Qəzet Heydər Əliyevi “Azərbaycanın Atatürkü” adlandıraraq yazır ki, onun rəhbərlik etdiyi dövrdə Azərbaycanda köklü dəyişikliklər baş verib: “Məhz Heydər Əliyevin timsalında şəxsiyyətin tarixdə necə rol oynadığını görmək olar. İndi Azərbaycan Şərq və Qərb sivilizasiyaları arasında etibarlı körpü rolunu oynayır, dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilib”.

“Ura.news” nəşri ulu öndər Heydər Əliyevin Azərbaycan-Rusiya münasibətlərində rolunun təhlilinə geniş yer verib, görkəmli şəxsiyyətlərin onun haqqında xatirələrini bölüşüb.

“Komsomolskaya pravda” qəzetində dərc olunmuş “Çiçəklənən Azərbaycanın təməlini qoymuş Heydər Əliyevin 100 illiyi qeyd edilir” adlı məqalədə deyilir ki, müasir Azərbaycanı Heydər Əliyevsiz, onun tarixi irsi olmadan təsəvvür etmək mümkün deyil: “Məhz onun 90-cı illərdə hakimiyyətə qayıdışı ilə ölkə daxili qanlı münaqişələrdən xilas ola bildi, əsl müstəqillik yoluna qədəm qoydu. Bu isə heç də asan deyildi. Axı suverenliyi qoruyub saxlamaq və inkişaf etdirmək onu əldə etməkdən daha çətindir”.

“Arqumentı i faktı” qəzeti ümummilli liderin yubileyinə həsr etdiyi məqaləni “Heydər Əliyev. Siyasətçi necə əfsanəyə çevrilir” sərlövhəsi ilə dərc edib. Məqalədə qeyd olunur ki, Heydər Əliyev hakimiyyətə qayıdışından sonra Azərbaycanda sovet dövründən qalan yaxşı nə var idisə qoruyub saxlamağa və onları yeni inkişaf variantları ilə birləşdirməyə çalışıb. “1994-cü ilin yazında o, Qarabağda münaqişəni, ölkədə daxili siyasi qarşıdurmaları dayandırmağı bacardı. Bununla da ölkənin dirçəliş dövrü başladı. Azərbaycanın yüksəliş dövründə dünyasını dəyişdi və ölümündən sonra əfsanəyə çevrildi”, - deyə məqalədə bildirilir.

“Mejdunarodnaya jizn” jurnalının ulu öndərə həsr olunmuş məqaləsində bildirilir ki, bu gün müstəqil Azərbaycanın banisi Heydər Əliyevin 100 illik yubileyi qeyd olunur. O, mürəkkəb yol keçib və hər zaman öz xalqına sadiq qalıb.

Rusiyanın Birinci televiziya kanalının ümummilli liderin yubileyi münasibətilə hazırladığı süjetdə Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən danışılıb. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu tamaşaçılarla öz xatirələrini bölüşüb.

Küveyt mediası da ulu öndər Heydər Əliyevə həsr olunmuş məqalələr dərc edib. Bu ölkənin ərəbdilli kütləvi informasiya vasitələrində - “ən-Nahar”, “əl-Qabas”, “əl-Vasat”, “ər-Ray”, “əl-Ənba”, “əl-Cəridə” qəzetlərində, “q8-press.com” və “dasmannews.com” elektron xəbər portallarında və ingilisdilli “kuwaittimes.com”, “timeskuwait.com” və həmin KİV-in sosial şəbəkələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə dair geniş məqalələr dərc edilib. Məqalələrdə 1994-cü il dekabrın 13-də ümummilli lider Heydər Əliyevin Mərakeşdə İslam Əməkdaşlıq Təşkilatının Sammiti çərçivəsində Küveyt Əmiri Şeyx Cabir Əl-Əhməd Əs-Sabahla görüşü ilə iki ölkə arasında əlaqələrin əsasının qoyulduğu vurğulanıb. Yazılarda, həmçinin ulu öndər Heydər Əliyevin sovet dövründə və müstəqillik illərində zəngin siyasi fəaliyyəti barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev İslam dövlətləri ilə əlaqələrin inkişafına və İslam həmrəyliyinə həmişə böyük önəm verib. Onun hələ SSRİ rəhbərliyində çalışarkən - 1982-1987-ci illərdə Misir, Suriya, İordaniya, Liviya, İraq, Yəmən, Pakistan və başqa müsəlman ölkələrinə səfərləri ulu öndərin bütün İslam aləmində aparıcı siyasətçilərdən biri kimi tanınmasına səbəb olub. Eləcə də ulu öndərin Azərbaycanın müstəqillik illərində siyasi fəaliyyəti barədə də ətraflı məlumat verilib, onun Azərbaycanı ən çətin sınaqlardan məharətlə çıxaraq, sürətlə inkişaf edən ölkəyə çevrilib.

Səudiyyə Ərəbistanı, Misir, Əlcəzair, İordaniya, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu KİV-də, o cümlədən “Qarbnews”, “Qitafnews, “Asiaelyoum”, “Al-hadath”, “Mesrena”, “Mostaklon”, “me-business.ae” nəşrləri ulu öndər Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş məqalələr dərc edib. Yazılarda ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açılıb, onun adının Azərbaycan tarixinə qızıl hərflərlə yazdığı vurğulanıb. Qeyd edilib ki, məhz bu xidmətlərinə görə Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının ümummilli lideri kimi ən yüksək ehtiramla yad olunur.

# Rayonlarda yeni suvarma mövsümünə start verilib



*Ağsuda yeni suvarma kanalı çəkilir.* ***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Ağsu Suvarma Sistemləri İdarəsi tərəfindən 2023-ci il ərzində planların yerinə yetirilməsi istiqamətində bir sıra işlər görülür.***

Belə ki, ilin əvvəlindən indiyə kimi plan çərçivəsində təsərrüfatlararası və təsərrüfatlardaxili suvarma kanalları 130 min m3 həcmdə lildən təmizlənib. Bundan başqa Ağsu Maşınqolu kanalında betonla üzləmə üçün hazırlıq işləri görülür. Barmi kanalına paralel olaraq isə yeni kanal çəkilir. Bununla da kanal ətrafında yerləşən ərazilərdə əkin sahələrinin suvarılması yaxşılaşır.

Yeni çəkilən kanal şoranlaşma təhlükəsini də aradan qaldıracaq. Bununla yanaşı suvarma suyu maneəsiz və itkisiz olaraq əkin sahələrinə çatacaq.

Ağsu Suvarma Sistemləri İdarəsi tərəfindən sel və daşqınlara qarşı mübarizə məqsədi ilə Ağsuçay, Girdimançayda və Nazirçayda 7 min m3 çay məcrası təmizlənib, hidrotexniki qurğulardan 15 ədədi cari və əsaslı təmir olunub. Sel suları nəticəsində çaylarda yaranmış təhlükəli vəziyyətlər idarənin texnikaları vasitəsilə aradan qaldırılıb. Nasos stansiyasında təmir işləri ardıcıl olaraq aparılır. Bunun nəticəsi olaraq rayonun bütün kəndlərinin suvarma suyu ilə təminatında olan çətinliklər aradan qaldırılıb. Su təminatında Ağsuçaydan, Girdimançaydan, Yuxarı Şirvan kanalı və onun Maşınqolu kanalından və eləcə də ehtiyyat su mənbəyi olan Cavanşir su anbarından istifadə edilib. Bundan başqa Subartezian quyularında cari təmir işləri aparılıb, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz olunur. Eyni zamanda Bəyimli kəndində 1 ədəd yeni subartezian quyusunun qazılması nəzərdə tutulub.

Qeyd edək ki, Ağsu Suvarma Sistemləri İdarəsi 37000 hektardan artıq suvarılan torpaq sahələrinə xidmət edir. Bu sahələr 974 km uzunluğunda olan kanallar vasitəsilə suvarılır. Bundan başqa idarənin balansında 33 ədəd subartezian quyusu və 2 ədəd nasos stansiya da mövcuddur.

Şabran rayonunda yeni suvarma mövsümünə start verilib. Dilqəm Şərifov bildirib ki, Şabran rayonunda yeni suvarma mövsümünə start verilib. Rayon Suvarma Sistemləri İdarəsi əməkdaşlarının əvvəlcədən gördüyü meliorativ tədbirlər nəticəsində sahələrin suvarılmasında hər hansı çətinlik yaşanmır. Yeni mövsümdə sahələrin vaxtında suvarılmasını düzgün təşkil etmək məqsədilə torpaq kanallar lil və kol-kosdan təmizlənib və bu işlər hazırda da davam etdirilir. Görülən işlər nəticəsində kanalların ötürücülük qabiliyyəti artırılır ki, bu da su itkisinin qarşısını alır. Kanalların təmizlənməsi işlərinə 15 ədəd ağır texnika cəlb olunub.

Şabran Suvarma Sistemləri İdarəsi əməkdaşları tərəfindən eyni zamanda yeni mövsümdə təsərrüfat sahiblərini vaxtında və itkisiz su ilə təmin etmək üçün torpaq məcralı kanalların beton üzlüyə alınması işləri də görülüb. Yaxın günlər isə daha iki kanalın beton üzlüyə alınması nəzərdə tutulub. Ümumilikdə isə son illər rayonda 100 km-dən artıq torpaq kanal beton kanalla əvəz edilib.

Görülən tədbirlərin nəticəsidir ki, təsərüffat sahibləri rahat şəkildə sahələrini suvara bilirlər. Bu da öz növbəsində fermerlərə bol məhsul əldə etməyə və sahələrini daha da genişləndirməyə şərait yaradır.

Hazırda Şabranda 19 min hektara yaxın əkinəyararlı torpaq sahəsini suvarmaq üçün 770 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Qeyd edək ki, 2019-cu ildə aparılan melorativ tədbirlərdən sonra Şabranda 9 min hektar sahə əkin dövriyyəsinə cəlb olunub. Əkinə yeni cəlb edilən sahələrin suvarılması məqsədi ilə ərazidə yeni qapalı sistem yaradılıb.

***Hüseyn***

# Son üç ayda Ucarda kənd təsərrüfatının statistikası

***Ucar rayonunda 2023-cü ilin məhsulu üçün 2979 hektar sahədə yazlıq bitkiləri əkilmiş, o cümlədən 325 hektar kartof, 876 hektar tərəvəz, 1778 hektar çoxillik yonca otu əkilib.***

2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə cəmi yazlıq əkinləri 12,7 faiz və ya 336 hektar çox əkilib. O cümlədən kartof əkini sahəsi 4,8 faiz və ya 15 hektar, tərəvəz əkini sahəsi 54,8 faiz və ya 310 hektar, çoxillik yonca otu sahəsi isə 0,6 faiz və ya 11 hektar çox olub.

2023-cü ilin aprelin 1-i vəziyyətinə 54743 baş iribuynuzlu mal-qara, 53055 baş qoyun və keçi mövcud olub. İribuynuzlu mal-qaranın 32088 başını və ya 58,6 faizini inək və camışlar təşkil edir.

2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 4505 baş, qoyun və keçilər 2487 baş, ana inək və camışların sayı isə 1220 baş azalıb.

2023-cü ilin yanvar-mart aylarında diri çəkidə 4765,2 ton ət, 14022,2 ton süd, 7265 min ədəd yumurta istehsal edilib. 2022-ci ilin yanvar-mart ayları ilə




müqayisədə ət istehsalı 13,0 faiz və ya 713,3 ton azalmış, süd istehsalı 2,0 faiz və ya 274,9 ton, yumurta istehsalı 0,4 faiz və ya 30 min ədəd artıb. Ət istehsalının 3234,8 tonu kənd təsərrüfatı müəssisələrinin, 1530,4 tonu isə ailə kəndli və ev təsərrüfatlarının payına düşüb.

***Ucar Rayon***



# 14 mindən çox şagird və məzun imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi mayın 14-də ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti imtahanlar keçirəcək.***

"Unikal" xəbər verir ki, həmin gün aşağıdakı imtahanlar baş tutacaq:

- əvvəlki illərin məzunları üçün 9 illik təhsil bazasında kolleclərə qəbul imtahanı;
- müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı;
- qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı;
- aprel ayında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin IX sinif şagirdləri üçün buraxılış imtahanı;
- eksternat qaydasında IX sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı;
- buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin IX sinif məzunları üçün buraxılış imtahanı keçiriləcək.

Bu imtahanlarda iştirak edəcək şəxslər "İmtahana buraxılış vərəqəsi"ni DİM-in saytından çap edib götürə bilərlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası" da təqdim olunur. Burada iştirakçılara imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahanlar saat 11:00-da başlanır. İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər (şagirdlər) imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanlarda 14 328 nəfərin iştirakı nəzərdə tutulur. İmtahanlarda 23 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Həmçinin eşitmə əngəlli abituriyentlər üçün onların dinləmə ilə bağlı qüsurları nəzərə alınaraq xüsusi test kitabçaları hazırlanıb. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

Ümumilikdə imtahanların idarə olunmasına 56 ümumi imtahan rəhbəri, 179 imtahan rəhbəri, 1340 nəzarətçi-müəllim, 157 buraxılış rejimi əməkdaşı və 56 bina nümayəndəsi ayrılıb.

İmtahanlar Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də təşkil olunur.

# Mayın 9-da Putinlə Paşinyan arasında təkbətək söhbət olub



***Mayın 9-da Qələbə günü Moskvaya səfəri çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya prezidenti Vladimir Putin arasında təkbətək söhbət olub.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Xatırladaq ki, Paşinyan Putinin dəvəti ilə Moskvaya gedib və orada Böyük Vətən Müharibəsində Qələbənin 78-ci ildönümü münasibətilə Qızıl Meydanda keçirilən bayram hərbi paradına baxıb. Daha sonra o, Kremldə Putin və bir sıra MDB liderləri ilə qeyri-rəsmi səhər yeməyinə qatılıb.

*Ağarza Elçinoğlu*

# Məhərrəm İncə prezidentliyə namizədliyini geri götürdü



***Türkiyədə Prezidentliyə namizəd müxalif Məmləkət Partiyasının lideri Məhərrəm İncə prezident seçkilərində iştirakdan imtina edib.***

"Unikal" xəbər verir ki o, bu barədə jurnalistlərə açıqlamasında deyib.

İncə, "Namizədliyimdən geri çəkilirəm. Bunu millətim üçün edirəm. Yoxsa seçkini uduzanda məni günahlandıracaqlar", - deyə qeyd edib.

# Çavuşoğlu Lavrovla Ermənistan-Azərbaycan məsələlərini müzakirə edib

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Moskvada 4 ölkənin xarici işlər nazirləri ilə regional məsələləri müzakirə etdiklərini bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin "Anadolu" agentliyi məlumat yayıb.

Bildirilir ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla Ermənistan-Türkiyə və Ermənistan-Azərbaycandakı son hadisələri müzakirə edib.

Çavuşoğlu görüşün müsbət keçdiyini vurğulayıb.

*Gülayə Mecid*

# Aİ hərbi potensialını genişləndirmək üçün 70 milyard avro xərcləyəcək

***Avropa İttifaqı ölkələri müdafiəni gücləndirmək üçün qarşıdakı üç ildə təxminən 70 milyard avro xərcləmək niyyətindədir.***

"Unikal" xəbər verir ki, bunu Avropa İttifaqının diplomatiya rəhbəri Cozef Borellə istinadən məlumat yayıb.

Borell Brüsseldə keçirilən konfransdakı çıxışında Aİ ölkələrinin fəaliyyəti və müdafiə proqramları ilə bağlı vəziyyəti təqdim edib.

# Kreml Ermənistan və Azərbaycandan təmkinli yanaşma gözləyir

***Rusiya Ermənistan və Azərbaycandan təmkinli yanaşma gözləyir.***

"Unikal" rus mətbuatına istinadən xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

O, Ermənistan və Azərbaycan arasında yeni gərginlik fonunda Rusiya Prezidenti Vladimir Putinin İlham Əliyev və Nikol Paşinyanla təmaslarının hazırda planlaşdırılmadığını söyləyib.

# Putinin həbsinə order verən hakimlər axtarışa veriləcək

***Rusiya Federasiyasının İstintaq Komitəsi tezliklə Beynəlxalq Cinayət Məhkəməsinin daha əvvəl Rusiya prezidenti Vladimir barəsində həbs qərarı çıxarmış hakimlərini axtarışa verəcək.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin deyib. "İstintaq Komitəsi bu qərarın qəbuluna fəal təsir göstərən sədr və üç hakimə (Beynəlxalq Cinayət Məhkəməsinin hakimləri - red.) qarşı cinayət işi açıb", - Bastrıkin bildirib.



Bastrikin həmçinin BCM və Avropa İnsan Hüquqları Məhkəməsini (AİHM) əvəz etmək üçün Asiya dövlətləri ilə daha yüksək məhkəmə yaradılmasını təklif edib.

Haaqadakı BCM-nin Məhkəməyə qədərki Palatası martın 17-də məhkəmə tərəfindən uşaqların Ukraynadan deportasiya edilməsində ittiham olunan Putin və Rusiyanın Uşaq Ombudsmanı Mariya Lvova-Belovanın həbsinə order verib.

Martın 20-də Rusiya Federasiyasının İstintaq Komitəsi BCM-nin hakimləri Tomoko Akane, Rosario Aytala və Serxio Qodinez və prokuror Kərim Xana qarşı cinayət işi açıb.

*Gülayə Mecid*

# Britaniya Ukraynanı 300 km-lik raketlərlə təmin etdi

***Böyük Britaniya Ukraynanı "Storm Shadow" uzaqmənzilli raketləri ilə təmin edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Kreml Londonun sözügedən addımını pisləyib.

"Rusiya silahlı qüvvələri Böyük Britaniyanın Ukraynanı "Storm Shadow" uzaqmənzilli raketləri ilə təmin etmək qərarına adekvat cavab verəcək", - Rusiya lideri Vladimir Putinin mətbuat katibi Dmitri Peskov açıqlayıb.

Bildirilib ki, ukraynalılar bu raketlərdən Rusiyanın ilhaq etdiyi ərazilərin dərinliklərindəki hədəflərə zərbə endirmək üçün istifadə edə bilər.

Qeyd edək ki, "Storm Shadow" uzaqmənzilli zenit raketidir, Britaniya və Fransa mütəxəssisləri tərəfindən birgə yaradılıb. O, adətən havadan buraxılır və 300 kilometrə qədər hədəfi vura bilir.

*Ağarza Elçinoğlu*




# "Ukraynaya əks hücuma hazırlaşmaq üçün daha çox vaxt lazımdır" - Zelenski

***"Ukraynaya rus işğalçılarına qarşı əks-hücum əməliyyatına başlamaq üçün daha çox vaxt lazımdır".***

"Unikal" xəbər verir ki, bunu Ukrayna prezidenti Volodimir Zelenski BBC-yə müsahibəsində deyib.

Ukrayna liderinin sözlərinə görə, xüsusən də Ukrayna ordusu tərəfdaşlarından vəd edilmiş hərbi yardımın çatdırılmasını gözləyir. O, ordunun hücuma hazır olduğunu açıqlayıb.



Zelenski bildirib ki, Ukrayna əlində olan silahlarla irəli gedə və uğur qazana bilər: "Lakin çox insan itirəcəyik. Fikrimcə, bu, qəbuledilməzdir. Ona görə də gözləmək lazımdır. Hələ bir az daha vaxt lazımdır".

O, həmçinin vurğulayıb ki, Rusiya bu müharibəni dondurmağa cəhd edir, Ukrayna ordusu bunun qarşısını almaq üçün hücum əməliyyatı keçirməlidir: "Hazırda Rusiyanın raket ehtiyatları tükənib, rus işğalçılarının ordusu arasında artilleriya çatışmazlığı var ki, bu da xüsusilə sanksiyalardan qaynaqlanır".

*Gülayə Mecid*

# Serb prezidenti Moskvada Putinlə görüşəcək

***Bosniya və Herseqovinanın tərkibində olan Serb Respublikasının prezidenti Milorad Dodik mayın 23-də Moskvaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Dodik yerli RTRS telekanalına müsahibəsində bildirib. O, Moskvada Rusiya prezidenti Vladimir Putinlə görüşəcək.

Serb lideri Putinlə gələcəkdə dünyanyada baş verənlərlə bağlı məsələləri müzakirə edəcəyini qeyd edib. Dodikin fikrincə, dünyanın 10 il əvvəlki kimi olmadığı göz qabağındadır və buna görə də ona uyğunlaşmaq lazımdır.

# "Putin və Zelenski ilə görüşməyə hazıram" - Tramp

***ABŞ-ın keçmiş prezidenti Donald Tramp Ukraynadakı münaqişəni həll etmək üçün Rusiya prezidenti Vladimir Putin və Ukrayna prezidenti Volodimir Zelenski ilə görüşəcəyini bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə CNN telekanalına müsahibəsində deyib. Tramp bildirib ki, yenidən ABŞ prezidenti olarsa, bir gün ərzində Ukrayna münaqişəsinə son qoyacaq. "Mən Putin və Zelenski ilə görüşəcəyəm. Onların hər birinin öz zəif və güclü tərəfləri var. Və 24 saat ərzində həll olunacaq, bitəcək", - deyə sabiq prezident bildirib.

Tramp Putinin çox ağıllı olduğunu vurğulayıb. Bununla belə, eks-prezidentin fikrincə, Putin Ukraynada hərbi əməliyyata başlamaqla yenə də ciddi səhv yol verib. Eyni zamanda Tramp vurğulayıb ki, 2022-ci ildə ABŞ prezidenti olsaydı, Putin müharibəyə başlamazdı.

# Şəhid mayor Anar Novruzovun xatirəsinə şahmat yarışı



***İkinci Qarabağ müharibəsində qanı bahasına xalqımıza qələbə sevinci yaşadan qəhrəman Vətən övladları əbədi bir ömür qazandılar. Belə ölməz qəhrəmanlardan biri, Masallı rayonunda dünyaya göz açmış, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli şəhid mayor Anar Novruzovdur. Masallılar həmişə, hər yerdə öz qəhrəman oğlunun adını qürurla çəkir, onunla fəxr edirlər.***

Mayor Anar Novruzov 2020-ci il iyulun 13-dən 14-ə keçən gecə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı müqəddəs şəhidlik zirvəsinə ucalıb. 12 mayda qəhrəman Vətən sevdalısının 47 yaşı tamam olur. Rayonda bu münasibətlə xatirəsinə həsr olunmuş şahmat üzrə məktəblilər arasında rayon turniri keçirilir. Xatirə turnirin təşkilatçıları Masallı Rayon Gənclər və İdman İdarəsi, Masallı Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbidir. Uşaq- Gənclər İdman-Şahmat Məktəbində təşkil olunan yarışın açılış mərasimində əvvəlcə Vətənin azadlığı naminə canından keçən igid oğlanların xatirəsi bir dəqiqəlik sükutla anıldı. Çıxışlarda Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru Ə. Yaqubov bildirdi ki, artıq ənənə halını alan xatirə turnirinin təşkilində məqsəd Vətən yolunda şəhid olan qəhrəman oğulların tanıdılması, məktəbli idmançılar arasında dostluq əlaqələrinin və vətənpərvərlik hisslərinin daha da güclənməsi, onların asudə vaxtlarının səmərəli təşkili, şahmat idman növünün kütləviliyinin artırılmasıdır.

Söz alıb danışan "Yeni həyat" qəzetinin əməkdaşı, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının üzvü A. Ağayev Vətənimizin bütövlüyü uğrunda cəsarətlə döyüşmüş Anar Novruzov kimi qəhrəmanların şərəfli ömür yolunun gələcək nəsillərə örnək olduğunu vurğuladı.

Yarışların baş hakimi F. Fərmanlı qeyd etdi ki, üç gün davam edəcək yarışlar dairəvi və İsveçrə sistemi ilə 5 yarımqrupda, 8-10-12-14-16 yaş qrupları üzrə keçirilir.

Şəhidin qardaşı S. Novruzov turnirin təşkilatçılarına, eləcə də əziyyəti olan hər kəsə razılığını bildirdi.

Sonra yarışa start verildi. Yarışın qalibləri isə mayın 12-də, şəhid mayorun Anarın doğum günündə təşkilat komitəsi tərəfindən mükafatlandırılacaq.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Türkiyə komandası atıcılıq üzrə dünya kubokunda qalib oldu

***Bakıda atıcılıq üzrə "Dünya Kuboku 2023"ün növbəti yarışları keçirilib.***



Qarışıq komandalar arasında 10 metr məsafəyə pnevmatik tüfəngdən atəş üzrə finala düşən iki Çin komandasından biri (Yuting Hvang və Lihao Şenq) qızıl, digəri (Jiling Vanq - Aoran Yanq) gümüş medala sahib olub. Həmyerlilər finalı 16:14 hesabı ilə tamamlayıblar. Çexiya komandasını təmsil edən Aneta Brabçova - Frantisek Smetana cütlüyü 17:11 hesabı ilə Macarıstan təmsilçilərini önə çıxaraq bürünc medala yiyələniblər.

Ötən il Bakıda bol medallarla yadda qalan Türkiyə komandası bu gün ilk medalını qazanıb. Qarışıq komanda növündə 10 metr məsafəyə pnevmatik tapançadan atəş üzrə türkiyəli Şimal Yılmaz və İsmail Keleş cütlüyü İtaliya komandasını 17:9 hesabı ilə önləyərək bürünc medala layiq görülüb. Hindistanlı Divya Tadigol Subaraju və Sarabjot Sinqh serbiyalı Zorana Arunoviç və Damir Mikeç duetinə 16:14 hesabı ilə qalib gələrək, yarışın qızıl medalçısı olublar.

# FIFA və UEFA-dan "Qarabağ"a başsağlığı

***FIFA və UEFA 21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin və "Qarabağ"ın əvəzedici komandasının futbolçusu Şirxan Həsənzadənin vəfatına biganə qalmayıb.***

Adıçəkilən qurumlar bununla əlaqədar başsağlığı məktubu ünvanlanıb.

AFFA-ya ünvanlanan məktubda FIFA-nın prezidenti Canni İnfantino və UEFA-nın baş katibi Teodor Teodoridisin başsağlığı mesajı yayımlanıb.

Adıçəkilən qurumlar futbolçunun ailəsinə, AFFA-ya, yığmada və klubda onunla birgə çıxış etmiş komanda yoldaşlarına başsağlığı verib.

# Çempionlar Liqası: Milan derbisini "İnter" qazandı



***Çempionlar Liqasında yarımfinal mərhələsinin ilk oyunlarına yekun vurulub.***

İkinci oyun günündə Milan derbisi keçirilib. Şəhərin eyni adlı komandası əzəli rəqibi "İnter"i qəbul edib. "San-Siro" stadionunda keçirilən görüş qonaqların 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, bu komandalar arasında cavab görüşü mayın 16-ı olacaq.

**10 may**

23:00. "Milan" - "İnter - 0:2
Qollar: Dzeko, 8, Mxitaryan, 11
"San Siro" stadionu

**9 may**

23:00. "Real" - "Mançester Siti"- 1:1
Qollar: Vinisius Junior, 36 (1:0), De Brüyne, 67 (1:1)

# "Real"ın "Los Qalaktikos" layihəsi



***"Real" gələn mövsüm üçün hücum xəttini ulduz futbolçularla gücləndirmək istəyir.***

Qol.az xəbər verir ki, bu barədə "The Telegraph" məlumat yayıb. "Real"ın yeni transfer layihəsi "Los Qalaktikos" adlanır.

Klubun əsas istəyi Cud Bellinqem ("Borussiya", Dortmund) və Kilian Mbappeni (PSJ) sıralarına qatmaqdır. Bellinqem artıq "Borussiya"nın yeni müqavilə təklifini rədd edib. İngiltərəli hücumameyilli yarımmüdafiəçinin "Real"la razılaşdığı, tərəflərin müqavilə imzalaycağı iddia olunur.

Ötən mövsüm "kral klubu"nun təklifini rədd edən Mbappe PSJ ilə yeni sözləşmə imzalamışdı. Onun müqaviləsinin müddəti 2025-ci ilin yayına qədərdir. Lakin Mbappenin Paris təmsilçisindəki gələcəyi qeyri-müəyyəndir. Hücumçunun "Real"a keçəcəyi və gələn mövsüm bu komandada oynayacağı bildirilib.

Qeyd edək ki, Bellinqem 2020-ci ildən "Borussiya"nın formasını geyinir, Mbappe isə 2017-ci ildən PSJ-də oynayır.

# Dünya çempionatı: Daha 2 cüdoçumuz mübarizəyə başlayır

***Qətərin paytaxtı Dohada keçirilən dünya çempionatında daha 2 cüdoçumuz mübarizəyə başlayacaq.***

90 kq çəki dərəcəsində Məmmədəli Mehdiyev 1/32 final mərhələsində Kevin Budayinlə (Kamerun) qarşılaşacaq.

Eyni çəkidə mübarizə aparan Murad Fətiyev isə 1/32 finalda Aleks Kretlə (Rumıniya) üz-üzə gələcək.

Qeyd edək ki, daha əvvəl Balabəy Ağayev, Turan Bayramov (hər ikisi 60 kq), Orxan Səfərov (66 kq), Hidayət Heydərov (73 kq), Səid Mollayi (81 kq), Leyla Əliyeva, Könül Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva və Aydan Əliyeva (hər ikisi 52 kq) turniri medalsız başa vurublar. Əlavə edək ki, dünya çempionatına mayın 14-də yekun vurulacaq.